

Milli azadlıqdan
şirin nemət yoxdur!

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

14 may
2025-ci il,
çərşənbə
№ 081 (6908)
Qiyməti
60 qəpik

# Prezident Xəzər regionunun ən böyük sərgisində...




Bax səh. 2

# Atəşkəs sabitliyin, sabitlik inkişafın, inkişaf isə qələbələrin təməlidir

Bax səh. 3

## "Yaşıl enerji" diplomatiyasının növbəti uğuru

Cari il sentyabrın 29-dan oktyabrın 3-dək Bakıda yeni Bakı İqlim Fəaliyyəti Həftəsi keçiriləcək. İqlim Həftəsinin proqramına enerji keçidi, davamlı kənd təsərrüfatı və su ehtiyatlarının idarə olunması, şəhərlər və tikinti mühiti, elm, texnologiya və innovasiya, davamlı iqtisadi inkişaf, KOB və "yaşıl bacarıqlar", gənclər və yeni nəsil startaplar, iqlimə uyğunlaşma və dayanıqlılıq kimi əsas mövzular daxildir. Həftə çərçivəsində beynəlxalq konfrans, seminarlar, dəyirmi masalar və mədəni tədbirlər keçiriləcək. Tədbirdə iqlim sahəsində çalışan mütəxəssislər, dövlət qurumları, investorlar və vətəndaş cəmiyyəti nümayəndələri bir araya gələcək.

Qeyd edək ki, ilk Bakı İqlim Fəaliyyəti Həftəsi ötən il sentyabrın 30-dan oktyabrın 4-dək keçirilib. Dünyanın müxtəlif ölkələrindən 700 nəfərdən çox insanın, o cümlədən dayanıqlılıq üzrə müxtəlif ekspert və siyasətçilərin, eləcə də özəl sektor və vətəndaş cəmiyyətinin liderlərinin bir araya gəldiyi tədbirdə qlobal ekoloji problemlərin həlli ilə bağlı faydalı müzakirələr aparılıb.

Bakı İqlim Fəaliyyəti Həftəsi ötən il Bakıda keçirilən COP29 hədəflərinə uyğun olaraq COP Sədrliklərinin Üçlüyü tərəfindən elan edilmiş 1,5°C hədəfinə aparan yol xəritəsi çərçivəsində müəyyən edilmiş prioritetlərin icrasında mühüm rol oynayıb. Tədbir ədalətli və "yaşıl" keçid prosesini asanlaşdırmaq üçün inklüziv iştirak və innovativ həllərin zəruriliyini vurğulamaqla yanaşı, Azərbaycan cəmiyyətində kompleks səfərbərlik səylər çərçivəsində atılan ilk addım kimi beynəlxalq icma tərəfindən yüksək dəyərləndirilib.

Bakı İqlim Fəaliyyəti Həftəsi həm də ümummilli iqlim dialoqunun başlanğıcı olmaqla, qlobal miqyasda rəsmi qurumları və vətəndaş cəmiyyətini...

Bax səh. 5



## "Terrorsuz Türkiyə" yolunda vacib mərhələ

Bax səh. 3

## Körfəzə səfər...

Prezidentliyinin ilk rəsmi səfərini Yaxın Şərqə edən Donald Trampın 4 günlük turu Səudiyyə Ərəbistanından başlayıb. Xatırladaq ki, səfər planına Səudiyyə Ərəbistanı, Qətər və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) daxildir. "ABC News" xəbər verir ki, səfər ABŞ və Körfəz ölkələri arasında dərinləşən iqtisadi əlaqələrin inkişafına hədəflənib.

Bu arada, AFP agentliyinin verdiyi məlumata görə, ABŞ Dövlət Departamenti BƏƏ-yə silah satışı ilə bağlı iki müqaviləni təsdiqləyib. Hərbi təyyarələrin və texnikanın satışını əhatə edən sövdələşmələrin ümumi dəyəri təxminən 1,4 milyard dollardır (1,3 milyard avro). Dövlət Departamentinin Siyasi-Hərbi Məsələlər Bürosu mayın 12-də bildirib ki, müqavilədə əsasən altı "CH-47F Chinook" helikopterinin və digər avadanlıqların Əbu-Dabiyə təhvil verilməsini nəzərdə tutulur.

ABŞ Dövlət Departamenti həmçinin F-16 qırıcıları üçün 130 milyon dollar (117 milyon avro) dəyərində komponentlərin satışını...

Bax səh. 6

## Liberal, sosial ədalət müdafiəçisi, miqrantların himayədarı...

Dünyanın siyasi, ideoloji mərkəzlərindən biri və bəlkə də birincisi sayılan Vatikanda yeni dönəm başladı. Papa Fransiskin ölümündən sonra tarixdə ilk dəfə olaraq amerika əsilli bir şəxs - Robert Francis Prevost Papa seçildi. Papa XIV Leo adını daşıyan yeni liderin seçilməsi və siyasi proseslərdəki iştirakı Katolik Kilsəsinin və dünya siyasətinin müxtəlif sahələrində əhəmiyyətli təsirə malikdir.

Yeni Roma Papasını bir az daha yaxından tanıyaq: Robert Francis Prevost 1955-ci ildə Çikaqoda anadan olub. O, Avqustinian...

Bax səh. 6

## Aİ Rusiya "asılılığını" bitirir?

Rusiya ilə Ukrayna arasında 3 ildən artıqdır davam edən müharibə ümumən Avropa kontingentinə mühüm iqtisadi çətinliklər yaradıb. Xammal, ərzaq təhlükəsizliyi kimi çoxsaylı komponentlərlə yanaşı, enerji təchizatında yaranan problemlər "köhnə qitə"ni fakt qarşısında qoyub - özünün enerji tələbatının olduqca mühüm hissəsini Rusiyadan təmin edən qitə yeni dövrdə Moskva ilə əlaqələrini fərqli cəhətlər üzərindən quracaqsa, özünə fərqli enerji idxalı konsepsiyası yaratmalıdır. Avropa Komissiyasının (AK) Rusiyanın enerji məhsullarının Aİ-yə idxalını dayandırmaq üçün hazırladığı yol xəritəsi də məhz bu əsaslara söykənir.

Qeyd edək ki, bu tipli əvvəlki proqram, "REPowerEU" 2022-ci ildə işə salınıb və Aİ ölkələrinin Rusiya qazına idxal payını 45 faizdən 19 faizə endirib...

Bax səh. 7

## Ərəb ölkələri ilə əlaqələr inkişaf edir

Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır. Bunu dünya ölkələrinin, nüfuzlu beynəlxalq təşkilatların Azərbaycanla əməkdaşlıqda maraqlı olmaları da təsdiqləyir. Son illər Azərbaycanın Avropa, Türk dünyası ölkələri ilə olduğu kimi, ərəb dövlətləri ilə də münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyub.

Ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdən birini məhz böyük İslam coğrafiyasına aid ölkələrlə, o cümlədən də ərəb dövlətləri ilə əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi təşkil edir. Bu gün müasir dövlət kimi inkişaf edən Azərbaycan öz siyasətində, həmçinin tarixi köklərə istinad edir və ənənələrə, milli-mənəvi dəyərlərə yüksək bağlılıq sərgiləyir. Ölkəmizin ərəb dövlətlərilə münasibətlərinin dərinləşməsinə münbit zəmin yaradan əsas faktorlardan biri məhz tarixi bağlılıq amilidir. Müqəddəs dinimiz, oxşar mənəvi dəyərlərimiz ölkələrimizi və xalqlarımızı birləşdirən çox mühüm amil qismində çıxış edir. Məhz bu amillər Azərbaycanla ərəb ölkələri ilə əlaqələri genişləndirir. Azərbaycanın İslam coğrafiyası ilə yaxınlaşmasında ilk növbədə təbii amillər, cəmiyyətlərin istəkləri və əlbəttə ki, dövlətlərin siyasi iradələri müstəsna rol oynayır. Ölkəmiz İslam dövlətləri ilə əməkdaşlığı ikitərəfli qaydada, həmçinin beynəlxalq platformalar üzərindən genişləndirir. Həm İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində, həm də Ərəb Liqası ilə əməkdaşlıq müstəvisində də əlaqələr xüsusi vurğulanmalıdır.

Bu mənada, Birləşmiş Ərəb Əmirlikləri ilə münasibətlər də xüsusi əhəmiyyətə malikdir. Yeri gəlmişkən, martın 11-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) xarici işlər naziri Abdullah bin Zayed Əl Nəhyan arasında...

Bax səh. 4

## NATO hərbi doktrinasını dəyişir



Bax səh. 7

## "Rəqəmsal qızıl"ın dəyəri 100 min dolları ötüb



Bax səh. 7

# PKK terror qruplaşmasının özünü ləğv etməsi tarixi hadisədir

## Prezident İlham Əliyev Türkiyənin milli müdafiə nazirini qəbul edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güləri qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyev PKK terror qruplaşmasının özünü ləğv etməsi ilə bağlı təbriklərini çatdıraraq, bununla əlaqədar Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı təbrik etdiyini vurğuladı. PKK terror qruplaşmasının özünü ləğv etməsini tarixi hadisə adlandıran və bizi də sevindirdiyini deyən Azərbaycan Prezidenti bu məsələdə Türkiyə Prezidentinin siyasi iradəsinin ən başlıca rol oynadığını qeyd etdi. Bununla yanaşı, dövlətimizin başçısı vurğuladı ki, Türkiyə dövlətinin gücü, qardaş ölkənin silahlı qüvvələrinin terrorçularla peşəkarcasına mübarizə aparması, Türkiyə cəmiyyətindəki birlik də terror qruplaşmasının bu addımı atmasında əsas amillərdəndir. Dövlətimizin başçısı dedi ki, bu, yalnız Türkiyə üçün deyil, ümumilikdə, bölgədəki xalqların sülh və əmin-amanlıq şəraitində yaşaması üçün önəmli məsələdir.

Təbriklərə görə minnətdarlığını bildirən Yaşar Gülər ilk növbədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Qonaq bir neçə il əvvəl Azərbaycan Prezidentinin güclü iradəsi ilə bölgədə erməni terrorçularına tarixi dərs verildiyini xatırladaraq qeyd etdi ki, Türkiyə terrorla 41 illik mübarizəni zəfərlə bitirdi. Yaşar Gülər bundan sonra Türkiyədə sülh olacağına əminliyini bildirdi və bu hadisənin bölgə üçün əhəmiyyətinə toxundu.

Türkiyənin milli müdafiə naziri qardaş Azərbaycanın Silahlı Qüvvələri ilə əlaqələri genişləndirmək üçün gələcəkdə də əllərindən gələni edəcəklərini dedi.

Söhbət zamanı Azərbaycan və Türkiyə Silahlı qüvvələri arasında qurulmuş səmərəli əməkdaşlığa toxunuldu, bu xüsusda birgə hərbi təlimlərin uğurla keçirildiyi vurğulandı.

Azərbaycanla Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik bildirildi, əlaqələrimizin daha da gücləndirilməsində iki ölkənin dövlət başçıları arasında sıx münasibətlərin rolu vurğulandı.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Ölkələrimiz arasında bütün sahələrdə qardaşlıq və müttəfiqlik əlaqələri dərinləşir

## İlham Əliyev Türkiyə Milli Təhlükəsizlik Şurasının Baş katibini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 13-də Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının Baş katibi Okay Məmişi qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Okay Məmişin Türkiyə Respublikasının Milli Təhlükəsizlik Şurasının Baş katibi təyin olunmasından sonra ilk səfərini ölkəmizə etməsinin əhəmiyyətinə toxundu və bu səfərin uğurlu olacağına ümidvarlığını bildirdi.

Okay Məmiş də öz növbəsində bu vəzifəyə təyin olunmasından sonra ilk səfərini qardaş Azərbaycana etməsindən məmnunluğunu diqqətə çatdırdı.

Söhbət zamanı ölkələrimiz arasında bütün sahələrdə qardaşlıq və müttəfiqlik əlaqələrinin dərinləşməsindən məmnunluq ifadə olundu. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında səmimi münasibətlərin əməkdaşlığımızın daha da genişlənməsi işinə böyük töhfə verdiyi vurğulandı.

Görüşdə ölkələrimizin bütün istiqamətlər üzrə, o cümlədən təhlükəsizliklə bağlı məsələlərdə uğurlu qarşılıqlı fəaliyyəti qeyd edildi.

# Prezident Xəzər regionunun ən böyük sərgisində...

















## İlham Əliyev “InterFood Azerbaijan” və “Caspian Agro” sərgiləri ilə tanış olub

Mayın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Ekspo Mərkəzində XXX Yubiley Azərbaycan Beynəlxalq Qida Sənayesi - “InterFood Azerbaijan” və XVIII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı - “Caspian Agro” sərgiləri ilə tanış olub.

AZƏRTAC xəbər verir ki, artıq milli brendə çevrilmiş “InterFood Azerbaijan” və “Caspian Agro” sərgiləri kənd təsərrüfatı və qida sənayesi sahələrində Xəzər regionunun ən böyük sərgiləridir. Bakı Ekspo Mərkəzinin bütün pavilyonlarını, həmçinin açıq sahəsini əhatə edən və mayın 16-da başa çatacaq “InterFood Azerbaijan” və “Caspian Agro” sərgilərində 31 ölkədən 450 şirkət iştirak edir. İştirakçı və ziyarətçilərin istəkləri nəzərə alınaraq, bu il sərgilər 4 gün davam edəcək.

Sərgilərin coğrafiyası dünyanın bir çox yerini əhatə etməklə, olduqca genişdir. Burada ABŞ, Çin, Qazaxıstan, Özbəkistan, Rusiya, Türkiyə və digər ölkələrin aparıcı kənd təsərrüfatı istehsalçıları məhsullarını nümayiş etdirirlər. Qeyd edək ki, Almaniya, Belarus, Cənubi Koreya, Gürcüstan, İtaliya, Niderland, Şri-Lanka, eləcə də ilk dəfə olaraq Misir sərgilərdə milli qruplar şəklində təmsil olunur.

Dövlətimizin başçısı İtaliyanın stendi ilə tanış oldu. “İtaliya Respublikasının Milli Qrupu”nda ümumilikdə 7 şirkət təmsil olunur. Onlar müxtəlif kənd təsərrüfatı məhsullarını təqdim edirlər. İtaliya bu sərgilərə böyük maraq göstərən ölkələrdəndir. Odur ki, bu ölkə 10 ildən çoxdur ki, sərgilərdə iştirak edir.

Bu il “InterFood Azerbaijan” sərgisi öz 30 illik yubileyini qeyd edir. Ötən illər ərzində 50-dək ölkədən 3 mindən çox şirkət və 150 mindən artıq ziyarətçini qəbul edən sərgi səmərəli biznes platforması statusunu qazanıb. Burada təqdim olunan yeni texnologiyalar və innovativ həllər qida sənayesi sahəsinin inkişafına və biznes əlaqələrinin genişləndirilməsinə əlverişli imkanlar yaradır. Eyni zamanda, sərgi ərzaq təhlükəsizliyinin əsas aspektlərini əhatə edərək, onun gücləndirilməsinə də töhfə verir.

Almaniya da sərgidə mütəmadi olaraq iştirak edir. “Almaniya Milli Qrupu”nda kənd təsərrüfatı məhsullarını təqdim edən 8 şirkət təmsil olunur. Bu şirkətlər yalnız Almaniyada deyil, kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində dünyanın tanınmış şirkətləridir. Qeyd edək ki, Almaniya 5 ildir ki, sərgilərə qatılır.

Sərgilər Kənd Təsərrüfatı Nazirliyinin təşkilati dəstəyi ilə keçirilir. Eyni zamanda, sərgilərə Qida Təhlükəsizliyi Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, İxracın və İnvestisiyaların Təşviqi Agentliyi, Sahibkarlar Təşkilatları Milli Konfederasiyası, Qida və İçki Sənayeçiləri Assosiasiyası, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası fəal şəkildə dəstək verir.

Cənubi Koreyanın stendində 3 şirkət təmsil olunur. Onlar kənd təsərrüfatı məhsulları sahəsində tanınmış şirkətlərdir. Bu şirkətlər meyvəsoyma və emal avadanlıqları, meyvə-bağçılıq materialları üzrə ixtisaslaşıblar. Eyni zamanda, şirkətlərin biri süni intellektə əsaslanan sistemlə ağıllı heyvandarlıq monitorinqi və idarəetməsi sahəsində xidmətlərini təklif edir. Cənubi Koreya artıq ikinci ildir ki, sərgidə iştirak edir.

Kənd Təsərrüfatı Nazirliyi bu il də sərgilərdə stendlə iştirak edir. 2025-ci ildə nazirliyin iştirakının əsas mövzusu süni intellektin kənd təsərrüfatında tətbiqi ilə bağlıdır. Belə ki, dövlətimizin başçısının tapşırığına uyğun olaraq süni intellektin kənd təsərrüfatında tətbiqi prioritet kimi müəyyən olunub. Sərgilər çərçivəsində Nazirlik süni intellektin tətbiqi ilə bağlı bir neçə layihəni iştirakçılara təqdim edəcək. Hazırda gündəmdə olan əsas məsələlərdən biri Azərbaycan universitetlərində süni intellekt istiqamətində təhsil alan tələbələr və bazarda olan böyük aqroparklar arasında sinerjinin yaradılmasıdır.

Prezident İlham Əliyev Gürcüstanın stendi ilə də tanış oldu. “Gürcüstan Milli Qrupu”nda 8 şirkət var. Onlar əsasən qida məhsullarını təqdim edirlər. Gürcüstan da bu sərgilərə böyük maraq göstərir. İndiyədək bu ölkə 10 dəfə sərgilərdə təmsil olunub.

“Caspian Agro” kənd təsərrüfatı texnikası, obyektləri və avadanlıqları, suvarma sistemi, qablaşdırma, kənd təsərrüfatında innovasiya texnologiyaları, heyvandarlıq və quşçuluq, baytarlıq, bitkiçilik, meyvə və tərəvəzlərin yetişdirilməsi, gülçülük, tullantıların emalı, logistika, elektron kənd təsərrüfatı kimi sahələri əhatə edir. Buraya kənd təsərrüfatı sənayesinin aparıcı iştirakçıları, yerli və xarici ekspertləri, o cümlədən idxalçılar, ixracatçılar, məhsulların distribütorları, topdan və pərakəndə ticarət nümayəndələri, həmçinin fermerlər də daxil olmaqla minlərlə peşəkar toplaşır.

Ekspozisiyada “Smart Agro” istiqaməti üzrə süni intellekt, ağıllı kənd, startaplar, İT xidmətləri, robototexnika, pilotsuz uçuş aparatları və “green agro” bölmələri də yer alır.

Sərgilər “Made in Azerbaijan” brendinin təşviqi üçün əlverişli platforma rolunu oynayır. Ötən il olduğu kimi, bu il də “Caspian Agro” və “InterFood Azerbaijan” sərgiləri çərçivəsində iştirakçılar bu brend altında məhsullarını nümayiş etdirirlər.

Uzun illərdir ki, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi sərgiləri fəal şəkildə dəstəkləyir, kiçik və orta sahibkarların tədbirlərdə iştirakı üçün stend təşkil edir. Şirkətlər bazarın yenilikləri ilə tanış olur, sahənin aparıcı liderləri ilə əlaqələr quraraq, inkişaf edir.

Belarus da sərgilərə böyük maraq göstərən ölkələrdəndir. Milli stenddə qida məhsulları istehsal edən 15 şirkət təmsil olunur. Onlar pendirin, ətin qablaşdırılması və emalı, süd sənayesi kimi sahələrdə ixtisaslaşmış şirkətlərdir. Bundan başqa Belarusun kənd təsərrüfatı texnikası da sərgidə geniş təmsil olunur. Qeyd edək ki, 10 ildən çoxdur bu ölkə sərgilərdə iştirak edir.

Prezident İlham Əliyev sərgilərin açıq hissəsində nümayiş etdirilən texnika və pavilyonlarla tanış oldu. Sərgilər Azərbaycanın kənd təsərrüfatı və qida sənayesinin inkişafına dəstək verərək, ölkənin ixrac potensialının artırılmasına, xarici investisiyaların cəlb edilməsinə imkan yaradır, eyni zamanda, qida təhlükəsizliyi və innovativ həllərin tətbiqi üçün əlverişli platforma rolunu oynayır. Sərgilərin miqyasını və sərgi çərçivəsində keçirilən tədbirlərin zəngin proqramını nəzərə alaraq, “Caspian Agro” və “InterFood Azerbaijan” 2026-cı ildən etibarən yeni “AgriWeek” brendi altında keçiriləcək.




# Atəşkəs sabitliyin, sabitlik inkişafın, inkişaf isə qələbələrin təməlidir

## Zəfərə gedən yolun AZƏRBAYCAN NÜMUNƏSİ...

1990-cı illərin əvvəlinin təlatümləri yenicə müstəqillik əldə etmiş Azərbaycanı böyük çətinliklərlə üz-üzə qoymuşdu - bir tərəfdə, erməni işğalı, separatizm, təcavüz və soyqırımı, digər tərəfdə isə biri-birini əvəzləyən səriştəsiz hakimiyyət, özbaşnalıq, xaos və idarəedilməz siyasi mühit. Belə bir zamanda, Heydər Əliyev ölkəmizin, xalqımızın, Vətənimizin xilaskarına çevrildi.

Müasir müstəqil dövlətçiliyimizin banisi olan Ulu öndər Heydər Əliyevin fəaliyyətə başladığı ilk gündən etibarən hədəfi inkişaf etmiş, iqtisadi liderə çevrilmiş və bütövlüyü, suverenliyi tam təmin olunmuş Azərbaycan idi. Buna nail olmaq üçün isə təbii ki, zaman gərəkirdi. Heydər Əliyev səbrlə, təmkinlə və uzaqgörənliklə bütün bunlara nail oldu - dövlətin inkişaf konsepsiyasının hazırlanması üçün ilkin lazımi şərti, sabitliyi formalaşdırdı. Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ilin yayında xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi rəhbərliyinə qayıtdıqdan az sonra - 1994-cü ilin mayında Ermənistanla atəşkəs müqaviləsinin imzalanmasına nail oldu. “Bişkek Protokolu” adlandırılan atəşkəs müqaviləsi mayın 12-də qüvvəyə mindi.

### Dövrün acı mənzərəsi...

Bu atəşkəsin siyasi - tarixi əhəmiyyəti günümüzün rakursundan daha parlaq görünür. Atəşkəsin vaciblik indeksi olduqca böyük idi - bəlkə də, həmin dövrdə bu o qədər də detallı şəkildə anlaşılmırdı. Amma bu gün tarixi prosesləri təhlil etdikdə, bunun şahidi olmamaq mümkün deyil. Yuxarıda da qeyd etdiyimiz kimi, həmin dövrün siyasi mənzərəsi hər şeyi detallı şəkildə ortaya qoyur:

- 1992-ci ilin yazında qeyri-legitim yolla hakimiyyətə gələn AXC-“Müsavat” iqtidarı ölkəni sözün əsil mənasında uçurumun kənarına gətirib çıxarmışdı;
- Vətəndaş qarşıdurması, müstəqilliyinin yenidən itirilməsi təhlükəsi tam real idi;
- Ölkədə xaos hökm sürürdü, iqtisadiyyat dağılmışdı, sosial gərginlik pik həddə çatmışdı;
- Ən əsası isə Azərbaycandakı idarəolunmaz vəziyyətdən istifadə edən Ermənistan havadarlarının dəstəyi ilə ərazilərimizin işğal coğrafiyasını durmadan genişləndirirdi.

Belə bir zamanda işğala qarşı nizami müqavimətin də təşkili olduqca çətin idi. Əvvəlki hakimiyyətlərdə təmsil olunan ayrı-ayrı şəxslərin ətrafında formalaşan kiçikhəcmli dəstələr özünümüdafiə adı altında fərqli maraqların təmini ilə məşğul idi. Belə çətin dövrdə ölkənin gələcəyi üçün sabitlik əsas amilə çevrilmişdi.

### Tarixi qərar...

Atəşkəsin imzalanması Azərbaycan üçün nə demək idi? Bu sual ilk baxışdan ritorik görünsə belə, məhz 30 illik tarixi mərhələnin fonunda olduqca genişməzmunlu əhəmiyyət daşıyır. Çünki atəşkəs nəticəsində Azərbaycanın potensialının səfərbər edilməsi, iqtisadiyyatının dirçəldilməsi, ölkənin investisiya cəlbediciliyininin artırılması, cəmiyyətdə milli həmrəyliyə nail olunması, nizami, vahid komandanlığa tabe olan ordunun yaradılması kimi mühüm əhəmiyyətli hədəflərə doğru “yol alındı”. Bu strateji mərhələləri uğurla adlamaq üçün isə ilk növbədə müharibəni dayandırmaq, müvəqqəti də olsa, atəşkəsə nail olmaq gərəkirdi. Beləliklə, Azərbaycan tarixinin ən mühüm məqamlarında biri olan və 1994-cü ilin mayında ərsəyə gələn, mayın 12-dən isə qüvvəyə minən “Bişkek protokolu” Heydər Əliyevin inkişaf konsepsiyasında, müasir qələbələrimizdə əsaslı paya sahibdir. Çünki “Bişkek Protokolu”nin qüvvəyə minməsi ilə Azərbaycan strateji məqsədlərini reallaşdırmaq imkanı qazandı. Məhz bu atəşkəsin imzalanması Azərbaycanın gələcək perspektivinin açarı olan və 1994-cü ilin sentyabrında imzalanan “Əsrin müqaviləsi”nin reallaşmasına təmin etdi. Bu mərhələdən sonra Azərbaycanın iqtisadi dirçəlişi gələcək siyasi qüdrətin, zəfərin, regional liderə çevrilmənin əsasını qoydu. Mayın 10-da Ağdam Muğam Mərkəzinin açılışında çıxış edən Prezident İlham Əliyev bildirib ki, o vaxt müharibəni dayandırmaq gənc dövləti xilas etmək üçün yeganə yol idi: “Ağır bir qərar idi. Torpaqlarımızın böyük hissəsi işğal altında idi, bir milyondan çox insan evsiz-eşiksiz qalmışdı. Ancaq müharibə dayanmasaydı, biz daha böyük faciə ilə üz-üzə qala bilərdik. Bu, çox müdrik, amma çətin qərar idi. Bu, bizə imkan verdi ki, Azərbaycan inkişaf yoluna qədəm qoysun. İmkan verdi ki, sabitlik bərpa edilsin, nizami ordu qurulsun, iqtisadi inkişaf üçün ilkin imkanlar yaransın, nizami ordu yaradılsın. Yəni biz bütün keçmiş tarixə nəzər salarkən, təbii ki, görürük, nə qədər məqsədyönlü, düşünülmüş addımlar atılmışdır. O addımlar ki, bugünkü Azərbaycan reallıqlarını təmin edir”.

### İnkişaf yolu...

Ən əsası isə ötən 26 il ərzində (2020-ci il Vətən müharibəsinə qədər) Azərbaycan apardığı hərtərəfli və mühüm inkişafa yönəlik siyasətlə önə çıxmağı bacardı. Özünün “qələbə” eyforiyasına qapılan Ermənistan işğal siyasətinin qurbanına çevrildi. Ulu öndər Heydər Əliyev, sonradan isə dövlət siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev Qarabağ münaqişəsinin ən xırda məqamlarını belə auditoriyaların diqqətinə çatdıraraq ölkəmizin haqq mübarizəsində yeni bir mərhələ formalaşdırdı. Tarixi Qarabağ zəfərinə gedən yolda Prezident İlham Əliyev dövlətin siyasi-iqtisadi dayaqlarını daha da möhkəmləndirirdi. Atəşkəs dövründə Azərbaycan uğurlu müasir ordu quruculuğuna start verdi Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq güclü, qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirməyə qadir olan ordunun yaradılması ilə bağlı davamlı şəkildə həyata keçirilən tədbirlər kompleks xarakter daşıdı. Atəşkəs dövründə Azərbaycanın iqtisadi müstəqilliyini təmin etməsinin və bu əsasda güclü Ordu yaratmasının ən böyük nəticəsi 44 günlük müharibədə qazanılan şanlı Qələbəmiz oldu. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində yeni əsrin yeni müharibə modelini tətbiq etdi. Ordunun yüksək döyüş hazırlığına, innovativ texnologiyalara, şəxsi heyətin vətənpərvərliyinə əsaslanan bu müharibə modelinin tətbiqi sayəsində Azərbaycan üç onillik ərzində düşmənin nəzarəti altında qalan torpaqlarını geri qaytarmağa və özünün ərazi bütövlüyünü təmin etməyə nail oldu.

### Real nümunə...

Demək olar ki, bütün sahələrdə - tolerantlıq, multikulturalizm, sivilizasiyalararası dialoq, iqtisadi inkişafda, xarici siyasətdə nümunə, model yaradan Azərbaycan bir daha sübut etdi ki, səbr və təmkinlə, təkamülə əsaslanan inkişaf konsepsiyası ilə, qarşıya qoyulan hədəflərin açıq müəyyənləşdirilməsi ilə böyük uğurlara imza atmaq mümkündür. Bu gün reallıqdan qaçmağa çalışan, atəşkəsi hətta “hər şeyin sonu” kimi qiymətləndirən bəzi dövlətlər Azərbaycan nümunəsinə diqqət yetirməlidirlər. Ölkəmiz ən kritik, çarəsiz, hətta köməksiz bir vəziyyətdən qalib, aparıcı siyasi-iqtisadi əhəmiyyətə malik, regional lider, etibarlı tərəfdaş, suverenliyi və ərazi bütövlüyü tam təmin olunmuş dövlətə çevrilib. Günümüzün bəzi siyasi-hərbi kataklizmlərinin tərəflərindən əziyyət çəkənlər Azərbaycan nümunəsini göz önünə gətirməlidirlər. Bu gün xüsusilə, Ukrayna-Rusiya cəbhəsində gedən qızğın müzakirələr, barışmazlıq vəziyyəti daha da tündləşdirir - amma Azərbaycan nümunəsi sübut edir ki, atəşkəs sabitliyin, sabitlik inkişafın, inkişaf isə qələbələrin təməlidir...

***P.İSMAYILOV***

# “Terrorsuz Türkiyə” yolunda vacib mərhələ

Hazırda dostluq, qardaşlıq münasibətləri zirvədə olan Azərbaycan və Türkiyə daim “bir millət iki dövlət” fəlsəfəsinə uyğun davranır, həmişə bir-birinin sevincinə şərik çıxır, kədərini bölüşür. Bu günlərdə Türkiyədən gələn xoş xəbər - PKK terror qruplaşmasının özünü ləğv etməsi qardaş ölkənin özündə olduğu kimi, respublikamızda da böyük sevinc hissi ilə qarşılanıb. Prezident İlham Əliyev PKK terror qruplaşmasının özünü ləğv etməsi ilə əlaqədar Türkiyə xalqını təbrik edib. Dövlətimizin başçısı “X” sosial şəbəkə hesabında bununla bağlı etdiyi paylaşımda bildirib: “Başda əziz Qardaşım, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla bütün qardaş Türkiyə xalqını PKK terror qruplaşmasının özünü ləğv etmək və silahı yerə qoymaq qərarı münasibətilə ürəkdən təbrik edirəm”.

**Azərbaycan da terrordan əziyyət çəkən ölkədir**

Qardaş Türkiyənin uzun illər ərzində əziyyət çəkdiyi terrorizm respublikamız üçün də olduqca həssas məsələdir. Azərbaycan da terrordan əziyyət çəkən ölkələr sırasında yer alır. Qısa müstəqillik tariximizdə Azərbaycanın suverenliyini sarsıtmağa, respublikanın ərazi bütövlüyünü təhdid etməyə, insanlarda qorxu, vahimə yaratmağa hesablanan terrorların mənbəyi rolunda ölkəmizə qarşı ötən əsrin doxsanıncı illərinin əvvəllərindən etibarən təcavüzkarlıq siyasəti həyata keçirmiş Ermənistan çıxış edib. Ümumiyyətlə, tarixi Azərbaycan torpaqlarında ermənilərin məskunlaşdırılması regionda sabitlik və təhlükəsizlik üçün ciddi təhdidə çevrilib.

Müstəqillik dövründə Ermənistan otuz il ərzində işğal altında saxladığı ərazilərimizdən terrorçuların hazırlanması və təlim keçmələri, həmçinin narkotik yetişdirilməsi və tranziti məqsədilə istifadə edib. İşğal altındakı ərazilərdə Azərbaycan xalqının əsrlər boyu yaratdığı maddi mədəniyyət nümunələrinin ermənilər tərəfindən vəhşicəsinə dağıdılması və yaxud özününküləşdirilməsinə cəhdlər göstərilməsi terrorun xüsusi bir forması idi. Ötən əsrin 90-cı illərində Ermənistanın xüsusi xidmət orqanlarının hazırladıqları terrorçular Bakı metrosunda bir neçə partlayış törətməyə nail olublar. 1994-cü il martın 19-da Bakı metropoliteninin “20 Yanvar” stansiyasında törədilən terror nəticəsində 14 nəfər həlak olub, 49 nəfər yaralanıb. İstintaq nəticəsində müəyyən edilib ki, bəhs olunan terroru həyata keçirən dəstə Ermənistanın Nairi rayonunun Lusakert qəsəbəsində yerləşən təlim-məşq bazasında xüsusi terror-təxribat hazırlığı keçib. İstintaq zamanı müəyyənləşdirilib ki, təxribatçılar təlimata uyğun olaraq, “20 Yanvar” stansiyası ilə yanaşı, Bakının “Nizami” kinoteatrında, Respublika sarayında (indiki Heydər Əliyev sarayı-red.) və Bakı lampa zavodunda da partlayışlar törətməyi planlaşdırıblar.

Metronun “20 Yanvar” stansiyasında törədilən terrordan cəmi bir neçə ay sonra - 1994-cü il iyulun 3-də erməni terrorçuları Azərbaycana qarşı növbəti cinayətlərini həyata keçiriblər. Bakı metrosunun “28 May” və “Gənclik” stansiyaları arasında qatarda törədilən partlayış nəticəsində 13 nəfər həlak olub, 42 nəfər yaralanıb. Terror aktını törətməkdə şübhəli bilinən Azərbaycan vətəndaşı Azər Aslanov öz ifadələrində bildirib ki o, Bakı metropolitenində terror aktı törətmək göstərişini erməni əsirliyində olarkən, erməni yazıçısı Zori Balayandan alıb. Yeri gəlmişkən, qeyd edək ki, Zori Balayanın özü də qələmə aldığı məqalələrində Azərbaycanda həyata keçirdikləri terrorlardan bəhs edib. Bütün bu kimi faktlar onu deməyə əsas verir ki, Ermənistanda Azərbaycana qarşı terrorun dəstəklənməsi ayrıca bir ideologiya kimi dövlət və milli səviyyəyə qaldırılıb.

Ermənistanın Azərbaycana qarşı dövlət səviyyəsində həyata keçirdiyi mina terroru xüsusi amansızlığı ilə fərqlənir. Azərbaycan dünyada minalarla ən çox çirklənmiş (Avropada ikinci) və bunun ağır fəsadlarını öz üzərində hiss edən ölkələr sırasında yer alır. İşğalın davam etdiyi 30 il ərzində ərazilərimizin iyirimi faizi boz zonaya çevrilib, orada ən ağlasığmaz yerlərdə çoxsaylı minalar basdırılıb. Respublikamızda 4 minə yaxın insan mina terrorunun qurbanı olub. Eyni zamanda, mina terroru 44 günlük Vətən müharibəsindən və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərindən sonrakı mərhələdə də davam edir. Təkcə belə bir faktı vurğulamaq kifayətdir ki, postmünaqişə dövründə 400-ə yaxın vətəndaşımız mina partlayışında həyat və sağlamlığını itirib.



**Milli səviyyədə terrorizmə qarşı sistemli mübarizə**

Azərbaycan terrordan əziyyət çəkən ölkə olaraq bu dəhşətli bəlaya qarşı qlobal mübarizə tədbirlərində yüksək fəallıq göstərir. Ölkəmizin nümunəsi və uğurlu fəaliyyəti Avropa Şurasının “Çirkli Pulların Yuyulmasına və Terrorizmin Maliyyələşdirilməsinə qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi”nin (MONEYVAL) hesabatında yüksək qiymətləndirilib. Hesabatda son beş il ərzində Azərbaycanda bir neçə qiymətləndirmə kriteriyası üzrə görülmüş işlər, əldə edilmiş nailiyyətlər qiymətləndirilərək məqbul hesab edilməklə, gələcəkdə bu sahələr üzrə qarşıda duran işlərə dair tövsiyələr qeyd olunub.

MONEYVAL və digər beynəlxalq qurumlar tərəfindən respublikamızın terrorizmə qarşı mübarizə təcrübəsinin yüksək dəyərləndirilməsi heç də təsadüfi deyil. Azərbaycanın terrorizmə qarşı mübarizəsi sistemli səciyyə daşıyır. Aparılan ardıcıl mübarizə həm cəmiyyətimizin xarakterinə və istəyinə, həm də dövlətin güclü siyasi iradəsinə əsaslanır. Ölkəmizdə terrorizmə qarşı mübarizə sahəsində milli qanunvericilik davamlı olaraq beynəlxalq öhdəliklərə uyğunlaşdırılır. Hazırda respublikamız terrorçuluğa qarşı mübarizə üzrə mövcud 12 beynəlxalq konvensiyanın hamısına tərəf olaraq qoşulub. Milli qanunvericiliyin davamlı şəkildə təkmilləşdirilməsi institusional islahatlarla dəstəklənir. Respublikamızda müvafiq sahədə əsas səlahiyyətli dövlət qurumları Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti, Daxili İşlər Nazirliyi və Dövlət Sərhəd Xidmətidir. Hüquq-mühafizə qurumları ilə yanaşı, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və digər aidiyyəti qurumlar tərəfindən terrorçuluğa qarşı mübarizədə preventiv və sosial xarakterli tədbirlər görülərək fəaliyyətlər uzlaşdırılır. Maliyyə Monitorinqi Xidməti ölkənin əsas maliyyə kəşfiyyatı qurumu olaraq terrorçuluğun maliyyələşdirilməsi və çirkli pulların yuyulmasına qarşı mübarizə sahəsində ixtisaslaşıb. Qurumun institusional əsası və funksiyaları İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun (FATF) standartlarına uyğunlaşdırılıb.

Digər ölkələrlə imzalanan ikitərəfli, üçtərəfli və çoxtərəfli sazişlərlə yanaşı, Azərbaycan terrorçuluğa qarşı mübarizə sahəsində regional və beynəlxalq əməkdaşlıq mexanizmlərində də fəal iştirak edir. Ölkəmizin terrorçuluğa qarşı mübarizə sahəsində sıx əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar arasında BMT-nin Terrorçuluqla Mübarizə İdarəsini, ATƏT-in Transmilli Təhdidlər Departamentini, Avropa Şurasının Terrorçuluğa qarşı mübarizə üzrə Ekspertlər Qrupunu (CODEXTER), eləcə də GUAM, Avropa İttifaqı, MDB, Şanxay Əməkdaşlıq Təşkilatını və digərlərini qeyd edə bilərik.

**Qardaş Türkiyənin həyatında yeni dönəm**

Sosial şəbəkə hesabındakı paylaşımında alınmış qərarın tam icrası istiqamətində Türkiyə dövlətinə və xalqına uğurlar arzulayan Prezident İlham Əliyev vurğulayıb: “Əziz Qardaşımın bəyan etdiyi “Terrorsuz Türkiyə” hədəfinə çatmaqda vacib mərhələ olan bu hadisə dövlətçilik yolunda ölkədə aparılan qətiyyətli siyasətin nəticəsi, güclü liderliyin və sarsılmaz iradənin, milli birliyin və həmrəyliyin təntənəsidir”.

Məlumat üçün bildirək ki, PKK Abdullah Öcalan tərəfindən 27 noyabr 1978-ci ildə yaradılıb. Qurum əsasən Türkiyənin şərq və cənub-şərqində, eləcə də qonşu coğrafiyalada - İraqın və Suriyanın ərazilərində fəaliyyət göstərib. Separatizmə əsaslanan bu fəaliyyətin əsas məqsədi özünüidarə sistemi qurmaq olub.

Əlbəttə, PKK-nın onilliklər ərzində mövcud olması ilk növbədə xarici dəstək amilindən qaynaqlanıb. Məlumdur ki, qardaş ölkənin silahlı qüvvələri mütəmadi qaydada Türkiyənin və qonşu dövlətlərin ərazilərində separatçı-terrorçu qruplaşmaya qarşı davamlı şəkildə uğurlu əməliyyatlar keçirib. Bununla belə, məhz bəzi xarici dövlətlərdən gələn yardımlar sayəsində PKK ayaqda qalmağı bacarırdı. Qurumun özünü ləğv etməsi Türkiyənin onillikləri əhatə edən qətiyyətli mübarizəsinin nəticəsidir. Bununla qardaş ölkənin daxili və xarici təhlükəsizliyinin təmin olumasında yeni bir dönəm başlayıb. Prezident İlham Əliyev Türkiyə Respublikasının milli müdafiə naziri Yaşar Güləri qəbul edərkən PKK terror qruplaşmasının ləğvi məsələsində Türkiyə Prezidentinin siyasi iradəsinin ən başlıca rol oynadığını qeyd edib.

Bununla yanaşı, dövlət başçısı vurğulayıb ki, Türkiyə dövlətinin gücü, qardaş ölkənin silahlı qüvvələrinin terrorçularla peşəkarcasına mübarizə aparması, Türkiyə cəmiyyətindəki birlik də terror qruplaşmasının bu addımı atmasında əsas amillərdəndir.

***Mübariz ABDULLAYEV***

# Ərəb ölkələri ilə əlaqələr inkişaf edir

Azərbaycan beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınır. Bunu dünya ölkələrinin, nüfuzlu beynəlxalq təşkilatların Azərbaycanla əməkdaşlıqda maraqlı olmaları da təsdiqləyir. Son illər Azərbaycanın Avropa, Türk dünyası ölkələri ilə olduğu kimi, ərəb dövlətləri ilə də münasibətləri yeni inkişaf mərhələsinə qədəm qoyub.







## Din və mənəvi dəyərlər bağlılığı...

Ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdən birini məhz böyük İslam coğrafiyasına aid ölkələrlə, o cümlədən də ərəb dövlətləri ilə əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi təşkil edir. Bu gün müasir dövlət kimi inkişaf edən Azərbaycan öz siyasətində, həmçinin tarixi köklərə istinad edir və ənənələrə, milli-mənəvi dəyərlərə yüksək bağlılıq sərgiləyir. Ölkəmizin ərəb dövlətlərilə münasibətlərinin dərinləşməsinə münbit zəmin yaradan əsas faktorlardan biri məhz tarixi bağlılıq amilidir. Müqəddəs dinimiz, oxşar mənəvi dəyərlərimiz ölkələrimizi və xalqlarımızı birləşdirən çox mühüm amil qismində çıxış edir. Məhz bu amillər Azərbaycanla ərəb ölkələri ilə əlaqələri genişləndirir. Azərbaycanın İslam coğrafiyası ilə yaxınlaşmasında ilk növbədə təbii amillər, cəmiyyətlərin istəkləri və əlbəttə ki, dövlətlərin siyasi iradələri müstəsna rol oynayır. Ölkəmiz İslam dövlətləri ilə əməkdaşlığını ikitərəfli qaydada, həmçinin beynəlxalq platformalar üzərindən genişləndirir. Həm İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində, həm də Ərəb Liqası ilə əməkdaşlıq müstəvisində də əlaqələr xüsusi vurğulanmalıdır.

## Azərbaycanla BƏƏ strateji tərəfdaş ölkələrdir

Bu mənada, Birləşmiş Ərəb Əmirlikləri ilə münasibətlər də xüsusi əhəmiyyətə malikdir. Yeri gəlmişkən, martın 11-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) xarici işlər naziri Abdullah bin Zayed Əl Nəhyan arasında telefon danışığı olub. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, telefon danışığı zamanı ölkələrimiz arasında strateji tərəfdaşlıq çərçivəsində görülən işlər, həm ikitərəfli, həm də çoxtərəfli çərçivədə əməkdaşlıq perspektivləri, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Nazirlər siyasi, iqtisadi, ticarət, energetika, turizm və s. istiqamətlərdə əməkdaşlıq əlaqələrinin inkişaf perspektivlərini nəzərdən keçiriblər. Onlar, həmçinin beynəlxalq platformalarda əməkdaşlıq istiqamətlərindən və qarşılıqlı dəstəkdən məmnun olduqlarını bildiriblər. Telefon danışığı zamanı, eyni zamanda, digər qarşılıqlı maraq doğuran ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Ceyhun Bayramovun Bəhreynə səfərində nələr müzakirə olunub?

Mayın 12-də isə xarici işlər naziri Ceyhun Bayramov Bəhreyn Krallığına rəsmi səfər edib. Səfər çərçivəsində o, Bəhreyn Krallığının vəliəhdi və Baş naziri Salman ibn Həməd ibn İsa Əl-Xəlifə ilə görüşüb. Görüşdə Azərbaycan-Bəhreyn ikitərəfli və çoxtərəfli əməkdaşlığının hazırkı durumu, ikitərəfli və çoxtərəfli münasibətlərin inkişaf perspektivləri, habelə regional və beynəlxalq vəziyyət müzakirə olunub.

C.Bayramov səfərin iki ölkə arasında əməkdaşlığın inkişafına töhfə olacağına dair ümidvarlıq ifadə edib. Ölkələrimiz arasında ali və yüksək səviyyədə siyasi dialoqun səviyyəsindən məmnunluq ifadə olunub, bu dinamikanın iqtisadiyyat, ticarət, investisiyalar, turizm, logistika, informasiya və kommunikasiya texnologiyaları üzrə konkret təşəbbüslər vasitəsilə daha da inkişaf etdirilməsinin vacibliyi vurğulanıb. 2026-cı ilin Azərbaycan və Bəhreyn arasında diplomatik münasibətlərinin 30 illiyi ilə əlamətdar olacağı məmnunluqla qeyd edilib, bu illər ərzində münasibətlərimizin əsaslandığı prinsiplərin bundan sonra da əməkdaşlığımızın inkişafında rəhbər tutulmasının əhəmiyyəti diqqətə çatdırılıb.

Səfər zamanı C.Bayramov Bəhreynin xarici işlər naziri Əbdüllətif bin Rəşid Əlzəyani ilə də görüşüb. Görüş zamanı, Azərbaycan və Bəhreyn arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, münasibətlərin gələcək perspektivləri, həmçinin regiondakı və beynəlxalq inkişaflar müzakirə olunub. Növbəti il Azərbaycan və Bəhreyn arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunacağı məmnunluqla qeyd edilib, bu illər ərzində bir sıra sahələr üzrə qarşılıqlı faydalı əməkdaşlığın, o cümlədən çoxtərəfli platformalar çərçivəsində nümayiş olunan qarşılıqlı dəstək və həmrəyliyin əhəmiyyəti vurğulanıb.

Əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində mövcud potensialdan istifadə olunmasının, habelə bu xüsusda qarşılıqlı yüksək səviyyəli səfərlərin və görüşlərin intensivləşdirilməsi, Xarici İşlər Nazirlikləri arasında mütəmadi siyasi məsləhətləşmələrin aparılması və ikitərəfli hüquqi bazamızın zənginləşdirilməsinin vacibliyi qeyd olunub. Humanitar sahə üzrə əməkdaşlığın genişləndirilməsinin, xüsusilə təhsil və təcrübə mübadilələrinin əhəmiyyətindən də bəhs edilib.

Regional və beynəxalq təşkilatlar, o cümlədən Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub, ölkəmizin cari ilki AQEM sədrliyi, habelə 2026-cı ildə İƏT-in sammitinə sədrliyi zamanı mümkün birgə təşəbbüslər barədə fikir mübadiləsi aparılıb.

Qarşı tərəf, həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə həyata keçirdiyi bərpa və yenidənqurma işləri, mina təhdidi ilə mübarizə səyləri, habelə Azərbaycan-Ermənistan normallaşma prosesi, eləcə də Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları daxil olmaqla mövcud maneələr barədə ətraflı məlumatlandırılıb. Görüş zamanı Yaxın Şərqdə vəziyyət də geniş müzakirə edilib.

C.Bayramovun Bəhreyn Şura Məclisinin sədri Əli bin Saleh Al Saleh ilə görüşündə isə Azərbaycan-Bəhreyn əməkdaşlığının parlamentlərarası müstəvidə inkişafı və davam etdirilməsi imkanları, habelə qarşılıqlı maraq doğuran regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

### Parlament komitələrinin birgə iclasında...

# "İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı" müzakirə olunub



Mayın 13-də Milli Məclisin İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib. İclasda "İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı" (2024-cü il üçün) müzakirə olunub.

Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc bildirib ki, Azərbaycanda insan alverinə qarşı mübarizə sahəsində hüquqi müstəvidə ciddi addımlar atılır. O xatırladıb ki, 2005-ci ildə qüvvəyə minmiş "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunda mühüm məqamlar əksini tapır və insan istismarına dair məsələlər göstərilir: "Bunlara məcburi əmək və xidmət, cinsi istismar, köləlik və köləliyə bənzər adətlər, orqan və toxumaların qanunsuz çıxarılması, biotibbi tədqiqatların icazəsiz aparılması, qadının surroqat ana kimi istifadə edilməsi, qanunsuz və cinayətkar fəaliyyətə cəlb olunma və digər istismar növləri daxildir. Bu yanaşma insan alveri problemini yalnız bir aspektlə deyil, çoxşaxəli sosial, tibbi, hüquqi və psixoloji müstəvilərdə qiymətləndirməyə imkan verir".

Komitə sədri vurğulayıb ki, insan alverinə qarşı mübarizə təkcə hüquq-mühafizə tədbiri kimi deyil, insan hüquqlarının müdafiəsi, sosial ədalət və hüquqi dövlət prinsipinin əsas elementlərindən biri kimi qiymətləndirilməlidir. O, Azərbaycanın bu istiqamətdə göstərdiyi səyləri beynəlxalq təcrübə ilə uzlaşdıraraq hüquq-mühafizə orqanlarının rolunu xüsusi olaraq qeyd edib.

Z.Oruc çıxışında Azərbaycanın təhlükəsizlik və ictimai sabitlik baxımından regionun aparıcı ölkələrindən biri olduğunu vurğulayıb. O, həmçinin vurğulayıb ki, ölkədə hüquq-mühafizə orqanlarının modernləşdirilməsi və imkanlarının genişləndirilməsi üçün ardıcıl islahatlar həyata keçirilir. Polis orqanları təkcə daxili təhlükəsizliyin təminatçısı kimi deyil, həm də ölkənin ərazi bütövlüyü uğrunda aparılan mübarizədə, o cümlədən İkinci Qarabağ müharibəsində mühüm rol oynayıb. Müharibə zamanı 66 polis əməkdaşının şəhid olması, 346 nəfərin yaralanması, 1400 nəfərə müxtəlif mükafatların verilməsi və 4 nəfərin Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülməsi bu xidmətlərin bariz göstəricisidir.

Z.Oruc çıxışında bəzi xarici media qurumlarının və onların siyasi sifarişçilərinin hüquq-mühafizə orqanlarının nüfuzunu hədəfə alaraq dövlət-polis-cəmiyyət münasibətlərini pozmağa yönəlmiş cəhdlərini də qınayıb. O, belə təşəbbüslərin Azərbaycanın Ermənistan üzərində əldə etdiyi hərbi və siyasi qələbəni gözdən salmağa yönəldiyini qeyd edərək bu cür təxribatların qarşısının hüquqi və informasiya sahəsində ardıcıl şəkildə alınacağını vurğulayıb.

Bildirilib ki, insan alverinə qarşı mübarizədə qanunvericilik aktlarının təkmilləşdirilməsi, cəmiyyətin maarifləndirilməsi, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və institusional resursların davamlı olaraq artırılması əsas prioritetlər sırasında qalmalıdır.

İclasda çıxış edən Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin rəisi Həzi Aslanov qeyd edib ki, son illər ərzində Azərbaycanda insan alveri ilə mübarizə çərçivəsində sığınacaqlara 350-dən artıq qurban yerləşdirilib. Onlardan bəziləri sığınacaqlarda 3-4 ilədək müddətdə yaşayıb. Bu, onların sosial müdafiəyə olan ehtiyaclarının və dövlət strukturlarının bu istiqamətdəki yükünün artdığını göstərir.

H.Aslanov əlavə edib ki, hazırda sığınacaqlarda yerləşdirilmiş insan alveri qurbanlarından ikisi - Ukrayna vətəndaşı olan qadınlar hüquqi sənədlərdən, xüsusilə də doğum haqqında şəhadətnamədən məhrumdur. Bu qadınların rəsmi sənədlərinin əldə edilməsi qeyri-mümkün olub. O, sığınacaqlarda yerləşdirilmiş bəzi şəxslərlə bağlı ciddi problemlərə diqqət çəkib: "Həmin qadınlar məcburi əmək qurbanlarıdır. Onlar sığınacağa yerləşdirilib, lakin sənədləşdirmə ilə bağlı ciddi çətinliklər var. Bu, həm onların hüquqi statusunun müəyyənləşdirilməsində, həm də gələcək sosial inteqrasiyasında maneələr yaradır".

Digər bir problem kimi sığınacaqların maliyyə resurslarının azalması məsələsi qeyd olunub. Məlumata görə, bəzi sığınacaqlar hazırda maliyyə çatışmazlığı səbəbilə fəaliyyətini məhdudlaşdırmaq məcburiyyətində qalıb ki, bu da insan alveri qurbanlarına göstərilən yardım və reabilitasiya xidmətlərinin davamlılığını təhlükə altına alır. Belə halların qarşısını almaq üçün müəyyən tədbirlərin həyata keçirilməsi vacibdir. Beynəlxalq əməkdaşlıq gücləndirilməli, xüsusən də münaqişə bölgələrindən olan sənədsiz şəxslərin hüquqi statusunun müəyyənləşdirilməsi istiqamətində mexanizmlər işlənib hazırlanmalıdır. Sığınacaqların maliyyə təminatı artırılmalı, donor təşkilatlarla və beynəlxalq qurumlarla əməkdaşlıq genişləndirilməlidir. Sənədsiz şəxslərin hüquqi statusunun müəyyənləşdirilməsi üçün hüquqi mexanizmlər sadələşdirilməli və onların inteqrasiyasına yönəlmiş sosial proqramlar gücləndirilməlidir. Bu cür hallar insan alveri ilə mübarizədə təkcə hüquqi deyil, həm də sosial və humanitar yanaşmaların vacibliyini bir daha gündəmə gətirir. Azərbaycanın bu istiqamətdəki səyləri beynəlxalq insan hüquqları təşkilatları tərəfindən də diqqətlə izlənir və dəstəklənir.

İclasda çıxış edən millət vəkilləri müzakirəyə çıxarılmış məsələ ilə bağlı fikirlərini bildiriblər. Sonda "İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı"nın parlamentin plenar iclasına çıxarılması tövsiyə olunub.

***Nardar BAYRAMLI***

# Türkiyənin uğurları Azərbaycanı da sevindirir



Mayın 13-də Milli Məclisin Səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov və qrupun üzvləri ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin nümayəndə heyəti ilə görüşüblər.

Əhliman Əmiraslanov qonaqları salamlayaraq bildirib ki, ölkə başçılarımız Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi və şəxsi dostluq münasibətləri sayəsində ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələr uğurla inkişaf edir və möhkəmlənir. O, diqqətə çatdırıb ki, hazırda Türkiyə öz tarixinin gözəl bir dövrünü yaşayır. PKK terror təşkilatının özünü buraxdığını elan etməsi, Türkiyənin dünya siyasətində artan nüfuzu mühüm uğurlardır və Türkiyənin uğurları Azərbaycanı da sevindirir.

Əhliman Əmiraslanov türk dövlətlərinin qarşılıqlı əməkdaşlığından danışaraq, bu baxımdan Milli Məclisdə yeni yaradılmış Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun fəaliyyətini yüksək qiymətləndirib, bu sahədə Türk Dövlətləri Təşkilatının əhəmiyyətini xüsusi vurğulayıb.

Yenidən Azərbaycanda olmaqdan məmnunluğunu bildirən Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım dost və qardaş ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə uğurlu inkişafından danışıb. O, əlaqələrimizin gücləndirilməsində hər iki ölkənin dövlət başçılarının xüsusi rolunu qeyd edib.

Şamil Ayrım PKK terror təşkilatının özünü buraxdığını elan etməsi ilə Türkiyənin təxminən 50 illik bir dövrdə mübarizə apardığı terror bəlasının sona çatdığını qeyd edib. O, Türkiyə və Azərbaycanın bundan sonra da bölgədə birlikdə daha da güclənəcəyinə inamını ifadə edib.

Görüşdə Türkiyə-Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) parlamentlərarası dostluq qrupunun rəhbəri Orhan Erdem, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, Azərbaycan-ŞKTC parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Feyziyev, Milli Məclisin deputatı Eldar Quliyev, Doğu Akdeniz Universitetinin rektoru Hasan Kılıç, ŞKTC Prezidentinin siyasi işlər üzrə müşaviri Anıl Kaya türk dövlətləri arasında münasibətlərə dair fikirlərini bölüşüblər. Qonaqlar Azərbaycana bu səfər çərçivəsində ADA universitetində keçirdikləri görüşdən və universitetlə tanışlıqdan məmnunluqla danışıblar, təhsil sahəsində əməkdaşlığın, qarşılıqlı tələbə mübadiləsinin vacibliyini qeyd ediblər.

Görüşdə Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa, Elm və təhsil komitəsinin sədr müavini Fariz İsmayılzadə, deputatlardan Əziz Ələkbərov, Qaya Məmmədov, Azər Allahverənov və digər rəsmi şəxslər iştirak ediblər.

***Nardar BAYRAMLI***

# Hamı velosiped sürsün!

## Heydər Əliyev Fondunun yeni sosial layihəsi

Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti respublikamızda dövlət üçüncü sektor tərəfdaşlığına gözəl nümunədir. Məlumdur ki, birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Fond mütəmadi qaydada mədəniyyət, təhsil, səhiyyə, ətraf mühit məsələləri ilə bağlı mühüm təşəbbüslər irəli sürür, sonradan isə bu ideyalar dövlət siyasətinin vacib istiqamətlərindən birinə çevrilir. Eyni zamanda, Fond da ayrı-ayrı istiqamətlərdə dövlət siyasətinə güclü ictimai dəstək verməklə idarəetmənin səmərəliliyinin yüksəldilməsində fəal şəkildə rol alır. Son nəticədə bu model ölkədə inklüzivliyi və vətəndaş məmnunluğunu təmin edir. Bu günlərdə Heydər Əliyev Fondu yeni sosial layihəsini təqdim edib.



### 200 uşaq və yeniyetməyə velosiped hədiyyə edilib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Xızı, Quba, Qax və Yevlax rayonlarında yaşayan uşaq və yeniyetmələr üçün xüsusi sosial aksiya həyata keçirilib. Belə ki, Azərbaycan Velosiped İdmanı Federasiyasının dəstəyi ilə keçirilən aksiya çərçivəsində hər rayondan 50 nəfər olmaqla, 6-18 yaş arası ümumilikdə 200 uşaq və yeniyetməyə velosipedlər və onlara uyğun təhlükəsizlik ləvazimatları hədiyyə olunub.

Mütəmadi olaraq keçirilən bu təşəbbüsün əsas məqsədi regionlarda yaşayan uşaqların asudə vaxtlarını daha səmərəli şəkildə keçirmələrinə şərait yaratmaq, onların idmana və sağlam həyat tərzinə marağını artırmaq, eləcə də ekoloji nəqliyyat vasitəsi kimi velosiped istifadəsini təşviq etməkdir.

Tədbirdə iştirak edən uşaqlar təqdim olunan hədiyyələri böyük sevinclə qarşılayıb, təşəbbüsə görə təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

Bəhs olunan layihəni Heydər Əliyev Fondunun sosial təşəbbüslərinin davamı kimi dəyərləndirmək mümkündür. Ötən müddət ərzində Fond tərəfindən “Yeniləşən Azərbaycana yeni məktəb”, “Təhsilə dəstək”, “Uşaq evləri və internat məktəblərinin inkişafı”, “Məktəbəqədər təhsil müəssisələrinin inkişafı” proqramları çərçivəsində çoxlu sayda orta məktəb, məktəbəqədər təhsil müəssisələri inşa və əsaslı təmir edilib, əhalinin səhiyyə problemlərinin aradan qaldırılması, ölkədə ekoloji durumun yaxşılaşdırılması istiqamətində mühüm işlər görülüb. Öz fəaliyyətində xalqa və vətənə xidmət yolunu əsas götürən Fond Azərbaycanda bütün sahələrin inkişafı istiqamətində layihələr həyata keçirir, tariximiz, mədəniyyətimiz, incəsənətimiz, Azərbaycan həqiqətlərinin dünyada tanıdılması üzrə müxtəlif proqram və layihələr, o cümlədən “Xocalıya ədalət!” beynəlxalq kampaniyasını reallaşdırır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü əsasında həyata keçirlən “Abad həyət” layihəsi sakinlər tərəfindən rəğbətlə qarşılanıb. İndiyədək bu layihə çərçivəsində onlarla məhəllədə abadlıq işləri görülüb, uşaqların və yeniyetmələrin əylənmələri, yaşlı insanların asudə vaxt keçirmələri üçün nümunəvi şərait yaradılıb.

### Bütün ölkəni əhatə edən layihələr

Əlamətdar haldır ki, Heydər Əliyev Fondunun sosial məzmunlu layihələri yalnız paytaxt Bakını deyil, ökəni bütün regionlarını əhatə edir. Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında  12 fevral 2016-cı il tarixdə Fondun nəzdində “Regional İnkişaf” İctimai Birliyi (RİİB)  təsis olunub. RİİB-in fəaliyyəti bütün respublika ərazisini əhatə edir və bölgələr üzrə regional mərkəzləri var. Qurumun əsas məqsədi cəmiyyətin sosial, iqtisadi və mədəni inkişafına töhfə verməkdən ibarətdir. İctimai Birlik indiyədək yerlərdə nəzarətin gücləndirilməsi, Heydər Əliyev Fondunun beynəlxalq layihələrinin Azərbaycan çərçivəsində tətbiq olunması istiqamətində mühüm işlər görüb. İctimai birlik regionlarda istedadlı, xüsusi qabiliyyətli insanların aşkara çıxarılması və onların davamlı inkişafının təmin edilməsi istiqamətində tədbirlər görür. Mehriban xanım Əliyevanın tapşırıqlarına uyğun olaraq qurum, həmçinin regionlarda valideyn himayəsindən məhrum qalmış, xüsusi qayğıya ehtiyacı olan, eləcə də sağlamlıq imkanları məhdud olan gənclərin dünyagörüşlərinin və praktiki biliklərinin artırılması, təhsil almaq imkanlarının yaxşılaşdırılması, cəmiyyətə aktiv inteqrasiyasının təmin edilməsi işinə dəstək verir. Bütün bu kimi geniş əhatə dairəsinə malik olan məqsədyönlü fəaliyyətlər son nəticədə regionalarda  insan kapitalının formalaşmasına və vətəndaş məmnunluğunun yüksəlməsinə güclü impuls verir.

Fondun cari ilin əvvəlindən regionlarda, o cümlədən də Şimal bölgəsində həyata keçirdiyi sosal məzmunlu layihələrin sayı da kifayət qədər çoxdur.  Xalqımızın əsrlər boyunca yaşatdığı Novruz bayramı ərəfəsində - İlaxır çərşənbəsi günündə Heydər Əliyev Fondunun dəstəyi ilə qəhrəman şəhidlərimizin övladları üçün Novruz şənliyi keçirilib. Bakıdan, Heydər Əliyev Mərkəzinin qarşısından xüsusi ayrılmış avtobuslarla Qubaya yola düşən uşaqlar burada onlar üçün təşkil olunan bayram süfrəsi ətrafında maraqlı bir gün keçiriblər. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bayram şənliyində şəhid övladları ilə birgə olub.

## “Gənc arıçı” layihəsi bu dəfə Xızıda reallaşdırılacaq

Gənc ailələrin məşğulluğu və ekoloji sahibkarlığın təşviqi məqsədilə həyata keçirilən “Gənc arıçı” layihəsi bu dəfə Xızı rayonunda icra olunacaq. Bu barədə IDEA İctimai Birliyindən məlumat verilib. Bildirilib ki, layihəyə cəlb olunacaq 20 gənc ailə əvvəlcə nəzəri və praktiki təlimlərdə iştirak edəcək. Təlimləri başa vurmuş iştirakçılar arı ailələri və pətəklər, arıçı geyimi, balsüzən aparat və digər zəruri avadanlıqlarla təmin olunacaqlar.

Gənc arıçılara istehsalat prosesinin effektiv təşkili üçün zəruri şərait yaradılacaq, eyni zamanda məhsulların sertifikatlaşdırılması, brendləşdirilməsi, dizaynı və satış strategiyalarının hazırlanması sahəsində metodoloji və peşəkar dəstək göstəriləcək.

“Gənc arıçı” layihəsində iştirak etmək istəyən Xızı rayonunda yaşayan 18-35 yaş arası gənclər mayın 18-dək müraciətlərini IDEA İctimai Birliyinin “1113” qaynar xətti və ya elektron poçt ünvanına (info@ideacampaign.org) göndərmələri və yaxud Dövlət Məşğulluq Agentliyinin Xızı rayon xidmət şöbəsinə yaxınlaşaraq qeydiyyatdan keçmələri xahiş olunur.

Müraciətlərin qiymətləndirilməsi zamanı iştirakçıların arıçılıq sahəsində bilik və təcrübəsi, sosial vəziyyəti, həmçinin arıçılıq təsərrüfatının yerləşdirilməsi üçün müvafiq həyətyanı torpaq sahəsinin mövcudluğu əsas meyarlar kimi nəzərə alınacaq.

Qeyd edək ki, “Gənc arıçı” layihəsi Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü, Gənclər Fondu, Dövlət Məşğulluq Agentliyi və ABAD publik hüquqi şəxsin tərəfdaşlığı ilə 2021-ci ildən həyata keçirilir. Bu günədək layihə çərçivəsində ölkənin müxtəlif regionlarında yaşayan 60-dan çox gənc ailəyə arıçılıq təsərrüfatının qurulmasına dəstək göstərilib.

*Mübariz FEYİZLİ*

# “Yaşıl enerji” diplomatiyasının növbəti uğuru

## Azərbaycan ikinci Bakı İqlim Fəaliyyəti Həftəsinə ev sahibliyi edəcək

Cari il sentyabrın 29-dan oktyabrın 3-dək Bakıda yeni Bakı İqlim Fəaliyyəti Həftəsi keçiriləcək.  İqlim Həftəsinin proqramına enerji keçidi, davamlı kənd təsərrüfatı və su ehtiyatlarının idarə olunması, şəhərlər və tikinti mühiti, elm, texnologiya və innovasiya, davamlı iqtisadi inkişaf, KOB və “yaşıl bacarıqlar”, gənclər və yeni nəsil startaplar, iqlimə uyğunlaşma və dayanıqlılıq kimi əsas mövzular daxildir. Həftə çərçivəsində beynəlxalq konfrans, seminarlar, dəyirmi masalar və mədəni tədbirlər keçiriləcək. Tədbirdə iqlim sahəsində çalışan mütəxəssislər, dövlət qurumları, investorlar və vətəndaş cəmiyyəti nümayəndələri bir araya gələcək.

### İqlim dialoqunun yeni səhifəsi

Qeyd edək ki, ilk Bakı İqlim Fəaliyyəti Həftəsi ötən il sentyabrın 30-dan oktyabrın 4-dək keçirilib. Dünyanın müxtəlif ölkələrindən 700 nəfərdən çox  insanın, o cümlədən dayanıqlılıq üzrə müxtəlif ekspert və siyasətçilərin, eləcə də özəl sektor və vətəndaş cəmiyyətinin liderlərinin bir araya gəldiyi tədbirdə qlobal ekoloji problemlərin həlli ilə bağlı faydalı müzakirələr aparılıb.

Bakı İqlim Fəaliyyəti Həftəsi ötən il Bakıda keçirilən COP29 hədəflərinə uyğun olaraq COP Sədrliklərinin Üçlüyü tərəfindən elan edilmiş 1,5°C hədəfinə aparan yol xəritəsi çərçivəsində müəyyən edilmiş prioritetlərin icrasında mühüm rol oynayıb. Tədbir ədalətli və “yaşıl” keçid prosesini asanlaşdırmaq üçün inklüziv iştirak və innovativ həllərin zəruriliyini vurğulamaqla yanaşı, Azərbaycan cəmiyyətində kompleks səfərbərlik səyləri çərçivəsində atılan ilk addım kimi beynəlxalq icma tərəfindən yüksək dəyərləndirilib.

Bakı İqlim Fəaliyyəti Həftəsi həm də ümummilli iqlim dialoqunun başlanğıcı olmaqla, qlobal miqyasda rəsmi qurumları və vətəndaş cəmiyyətini səfərbər etməyə dərin zəmin yaradıb. Ümumilikdə, Bakı İqlim Fəaliyyəti Həftəsi iqlim təqvimində mühüm an kimi tarixə düşüb.

### Azərbaycana olan növbəti etimad

Azərbaycan Respublikası Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi və COP29-un prezidenti Muxtar Babayev bildirib ki, bu mötəbər tədbirə növbəti dəfə ev sahibliyinin Azərbaycana həvalə edilməsi ölkəmizin iqlim dəyişikliyi ilə mübarizədə nümunəvi fəaliyyəti ilə bağlıdır. Respublikamız uğurlu “yaşıl enerji” diplomatiyasını yürütməklə geniş həmrəylik platforması yaradıb və ötən il COP tarixində ən mühüm sazişlər Azərbaycan paytaxtında imzalandı, uzun illər əldə edilməyən razılaşmalar burada həllini tapıb. COP-un əsas mövzularından biri maliyyələşmə ilə bağlı yekun nəticəyə nail olunun. İqlim dəyişiklikləri ilə mübarizədə beynəlxalq koalisiyanın əsas hədəflərindən biri olan iqlim maliyyələşdirilməsi məsələsi də COP29 sammitinə ev sahibliyi edən Azərbaycanın qətiyyəti sayəsində mümkünləşib. Həmçinin, Azərbaycanın səyi ilə aparılan səmərəli danışıqlar və diplomatik uğurların nəticəsində iqlim maliyyəsi siyasətini koordinasiya edəcək beynəlxalq təsisatın - İtki və Zərərə cavab verən Fondun maliyyə büdcəsinin formalaşdırılması və maliyyələşdirmə səlahiyyətləri təmin edilib.




### “Yaşıl” keçidlə bağlı yeni fürsətlər

Ötən il keçirilmiş Bakı İqlim Fəaliyyəti Həftəsində irəli sürülmüş təşəbbüsləri  davam etdirmək, əməkdaşlıq və təcrübə mübadiləsi üçün yeni imkanları artırmaq, Bakı ilə COP30-a ev sahibliyi edəcək Rio-de-Janeyro arasında iqlim sahəsində tərəfdaşlığı genişləndirmək üçün beynəlxalq səviyyədə iqlim dialoqlarının artırılmasına ehtiyac var. Bütün bu və digər amillər, ələlxüsus da birinci İqlim Həftəsində əldə olunmuş nailiyyətlər beynəlxalq ekoloji təsisatların Azərbaycanı növbəti dəfə planetar tədbirdə ev sahibliyi etməsini məqsəduyğun hesab edib. COP ailəsi arasında iqlim hədəfləri ilə bağlı koordinasiyanı gücləndirmək, ekoloji ambisiyaları artırmaq və bu fəaliyyətə təkan vermək konsepsiyasını inkişaf etdirmək baxımından ikinci Bakı İqlim Fəaliyyəti Həftəsi ötənlki ideyaların irəliyə doğru aparılmasında növbəti addım olacaq. Həmçinin COP30 tədbiri ərəfəsində beynəlxalq ictimai rəyin və ekoloji alyansın liderlərinin iştirakı ilə yerli maraqlı tərəfləri ruhlandırmaq və səfərbər etməkdə mühüm rol oynayacaq.

Toplantı yerli və regional kontekstlərə əsaslanan “yaşıl” keçidlə bağlı müzakirələrin təşviqi üçün yeni fürsətlər və imkanlar baxımından da əlverişli konsept hesab oluna bilər.

Bakı İqlim Fəaliyyəti Həftəsi dayanıqlı inkişaf və iqlim fəaliyyəti öhdəliyinə sadiq olan təşkilatlarla yeni əməkdaşlıq əlaqələri, eləcə də investisiya və tərəfdaşlıqlar çərçivəsində Azərbaycanın yeni təşəbbüslərinin dəstəklənməsi baxımından səmərəli platforma kimi yadda qalacaq. Növbəti Bakı Həftəsi iqlim həllərinin inkişaf etdirilməsi məsələsində beynəlxalq əməkdaşlıq və sinerjini daha da gücləndirəcək. Azərbaycanın regionda iqlim tədbirlərində lider mövqeyini qoruyacaq və “yaşıl” keçid imkanlarını nümayiş etdirməyə davam edəcək.

*E.CƏFƏRLİ*

# Aİ Rusiya “asılılığını” bitirir?

## Yeni enerji təchizatı xəritəsi hazırlanır

Rusiya ilə Ukrayna arasında 3 ildən artıqdır davam edən müharibə ümumən Avropa kontingentinə mühüm iqtisadi çətinliklər yaradıb. Xammal, ərzaq təhlükəsizliyi kimi çoxsaylı komponentlərlə yanaşı, enerji təchizatında yaranan problemlər “köhnə qitə”ni fakt qarşısında qoyub - özünün enerji tələbatının olduqca mühüm hissəsini Rusiyadan təmin edən qitə yeni dövrdə Moskva ilə əlaqələrini fərqli cəhətlər üzərindən quracaqsa, özünə fərqli enerji idxalı konsepsiyası yaratmalıdır. Avropa Komissiyasının (AK) Rusiyanın enerji məhsullarının Aİ-yə idxalını dayandırmaq üçün hazırladığı yol xəritəsi də məhz bu əsaslara söykənir.

### Plan təqdim olunub...

Qeyd edək ki, bu tipli əvvəlki proqram, “REPowerEU” 2022-ci ildə işə salınıb və Aİ ölkələrinin Rusiya qazına idxal payını 45 faizdən 19 faizə endirib. Bununla belə, 2024-cü ildə Rusiya qazının tədarükü bərpa olunub. AK-nın bəyanatında deyilir ki, yol xəritəsi Rusiyanın neft, qaz və nüvə enerjisinin koordinasiya olunmuş və təhlükəsiz şəkildə Aİ bazarlarından mərhələli şəkildə çıxarılmasını nəzərdə tutur. İlin sonuna qədər Aİ ölkələrinin Rusiya enerjisindən necə imtina edəcəkləri ilə bağlı planlarını hazırlaması gözlənilir. Plana əsasən 2027-ci ilin sonuna qədər Rusiya qazının idxalının tamamilə dayandırılması nəzərdə tutulur ki, bunun üçün ilk növbədə Rusiya qaz tədarükçüləri ilə yeni müqavilələr dayandırılacaq - birinci növbədə isə bu ilin sonuna qədər spot müqavilələr ləğv ediləcək. Eyni zamanda, Rusiyanın neft daşıyan “kölgə donanması” ilə mübarizə üçün yeni tədbirlər nəzərdə tutulur. Planda göstərilir ki, “Euratom”a Rusiyadan zənginləşdirilmiş uran və digər nüvə materiallarının tədarükü üçün yeni müqavilələrin bağlanması ilə bağlı məhdudiyyətlər nəzərdə tutulur. AK-nın yaydığı məlumatda deyilir ki, Rusiya enerji mənbələrindən tədricən uzaqlaşma Aİ-nin üzləşdiyi təhlükəsizlik risklərini azaldacaq: “Daha təmiz və daha müstəqil enerji sistemi iqtisadiyyatı stimullaşdırmağa kömək edəcək və həmçinin Avropanın karbonsuzlaşdırma (dekarbonizasiya) ambisiyalarına böyük töhfə verəcək”. Bu plana əsasən, AK iyun ayında qanunvericilik təşəbbüsləri irəli sürmək niyyətindədir. AK prezidenti Ursula Fon der Lyayen bildirib ki, “artıq Avropanın etibarsız təchizatçı ilə enerji əlaqələrini tamamilə kəsməsinin vaxtıdır”.



### Plana etiraz...

Ən maraqlı detal isə odur ki, bu plana da Aİ daxilində yekdilliklə “hə” deyilmir. Məsələn, “Politico” yazır ki, Macarıstandan olan Sağlamlıq və Heyvanların Rifahı üzrə Avropa Komissarı Oliver Varxeli Rusiya qazının idxalını dayandırmaq planının təsdiqlənməsinə qarşı olub. Varxeli sənədin mayın 6-da dərc olunmasına bir neçə saat qalmış Avropa Komissiyasının yeni planına prosessual etiraz edib. Mənbələrdən biri qəzetə bildirib ki, onun hərəkətləri siyasi motivli kimi qəbul edilib -belə ki, AK-nın öz komissarlarından əsas tələblərindən biri müstəqil olmaları və ölkələrinin maraqlarına uyğun hərəkət etməmələridir. Varxelinin etirazının isə Macarıstanın baş naziri Viktor Orbanın mövqeyinə uyğun gəldiyi bildirilir.

### Mənfi və müsbət cəhətlər...

Bir sıra beynəlxalq iqtisadçılar və siyasətçilər Aİ-nin Rusiya enerjisindən imtinasının mühüm nəticələrə yol aça biləcəyini düşünürlər. Onların fikrincə:

- Bu addım enerji qiymətlərinə təsirlər göstərə bilər. Bu fikri isə onunla əsaslandırırlar ki, Aİ hətta plan tərtib etsə belə, qısa müddətdə alternativ mənbələr tapmaq çətin olacaq;

- Təchizat riskləri böyüyür. Belə ki, enerji təhlükəsizliyi üçün yeni infrastruktur və tərəfdaşlar tələb olunur ki, bu da Aİ üçün böyük bir zaman tələb edir;

- Paralel olaraq bu addım Rusiya üçün mühüm iqtisadi itkilərə yol açacaq. Enerji ixracından asılılıq səbəbindən Rusiya büdcəsində azalma ola bilər, Moskvanın Avropaya ən güclü siyasi təsir vasitələrindən biri əldən çıxacaq.

Bütün bunlarla yanaşı isə Aİ-nin bu planı tətbiq etməklə uğur qazanacağına inananlar da tapılır. Onlar iddia edirlər ki, bu proses bərpa olunan enerjiyə keçidi sürətləndirə bilər. Aİ öz enerji müstəqilliyini artırmaq üçün “yaşıl enerji”yə daha çox sərmayə qoyar. Paralel olaraq isə enerji bazarında balansın dəyişməsi geosiyasi təsirləri də fərqli məcraya yönəldəcək - yeni enerji tərəfdaşlıqları və bazar dəyişiklikləri qlobal münasibətlərə də yeni yön verəcək...

***P.İSMAYILOV***

# NATO hərbi doktrinasını dəyişir



Dünyanın ən böyük hərbi alyansı olan NATO-da ciddi dəyişikliklər gözlənilir. “Business Insider” nəşrinin məlumatına görə, NATO hazırkı strategiyasının əvvəlki kimi effektiv olmamasını nəzərə alaraq, hərbi doktrinasını kökündən dəyişməyi planlaşdırır. Nəşrin məlumatında qeyd olunur ki, Rusiya-Ukrayna müharibəsində proseslərin Moskvanın lehinə işləməsi NATO-nun strategiyasında bir sıra problemlərin olduğunu ortaya çıxarıb. Qərb ekspertləri hesab edirlər ki, hazırkı proseslər fonunda NATO-da təcili islahatların aparılmasına zərurət yaranıb. Ukrayna Silahlı Qüvvələrinin keçmiş baş komandanı Valeriy Zalujnı Londonda çıxışı zamanı bildirib ki, alyans pilotsuz uçuş aparatlarının (PUA) inteqrasiyası və yüksək texnologiyalı silahların kütləvi istifadəsinə keçid daxil olmaqla, yanaşmaların tam yenidən nəzərdən keçirilməsinə ehtiyac duyur. Qeyd edək ki, NATO-nun rəhbərliyi alyansın gələcək təhlükələr qarşısında aciz qalacağından narahatlıq keçirir. Təhlükələrin qarşısının alınması istiqamətində zəruri tədbirlərin görülməsi niyyəti güdülür.

**NATO hərbi arsenalını artırmalıdır**

Məsələ ilə bağlı politoloq Asif Nərimanlı “Yeni Azərbaycan” qəzetinə şərhində qeyd edib ki, NATO gələcək təhlükələrə qarşı mübarizədə ciddi problemlərlə qarşılaşa bilər: “NATO Rusiya ilə müharibədə Ukraynanın arxasında bütün gücü ilə dayansa da, bu müharibəyə maksimum dərəcədə qoşulmamağa çalışır. Amma reallığa baxanda açıq-aydın görünür ki, NATO Ukraynada Rusiya ilə həm geosiyasi, həm geostrateji, həm də hərbi-təhlükəsizlik baxımından çox ciddi mübarizə aparır. Belə demək mümkünsə, Ukraynadakı müharibə de-fakto Rusiya-NATO müharibəsidir. ABŞ və Avropa ölkələrinin Kiyevə hərbi dəstəyi sayəsində Rusiya Ukraynada tam olaraq öz hədəflərinə nail ola bilməyib. NATO-nun dəstəyi olmasaydı, Ukrayna Rusiyanın hücumu qarşısında duruş gətirə bilməzdi. Buna baxmayaraq, bu müharibə NATO-nun özündə də problemləri üzə çıxardı. Əsas problemlərdən biri alyansın hərbi arsenalı ilə bağlıdır. Son bir neçə ildə Ukraynanın Rusiyanın kütləvi və davamlı raket və dron hücumlarının qarşısında aciz qalması, NATO-nun bu hücumları dəf etmək üçün Ukraynanı lazımi hava hücumundan müdafiə silahları ilə təmin etməməsi alyansın hərbi arsenalında müəyyən çatışmazlıqların olduğunu deməyə əsas verir. Bu hal onu göstərir ki, NATO qarşıdakı dövrlərdə Rusiyanın istənilən hücuma qarşı mübarizədə çətin duruma düşə bilər. Hərbi doktrinanın dəyişdirilməsi ilə bağlı müzakirələr məhz bundan qaynaqlanır. Xüsusi bir məqamı da vurğulayım ki, NATO-nun hərbi komitəsi Rusiyanın mümkün hücumu ilə bağlı 40-dan çox hesabat hazırlayıb. Yekun qərar budur ki, NATO ölkələri alyansın hərbi doktrinasını yenidən nəzərdən keçirməli, ən əsası da hərbi arsenalını artırmalıdırlar”.

**Alyansda çatlar yaranıb**

Hərbi ekspert Emin Həsənli qəzetimizə NATO-nun mövcud vəziyyətini şərh edərkən bildirib ki, Ukraynadakı müharibə həm Rusiya, həm də NATO ilə bağlı mifləri alt-üst etdi. “Müharibədən əvvəl Rusiyada hesab edirdilər ki, Rusiya ordusu dünyanın ən güclü ordusudur, rus ordusunu heç bir qüvvə məğlub edə bilməz, rus ordusu bir həftə ərzində Kiyevi nəzarətə götürə bilər. NATO ilə bağlı səsləndirilən müsbət fikirlər də o qədər özünü doğrultmadı. Xüsusilə qeyd edim ki, NATO Ukraynaya yetərincə hərbi dəstək verməди. Müharibənin ilk ilində NATO Ukraynanı effektiv hava hücumundan müdafiə sistemləri və qırıcı təyyarələr, eləcə də Rusiyanın hərbi obyektlərini sıradan çıxarmaq üçün ballistik silahlar ilə təmin etmədi. Ukraynaya yalnız yüngül silahlar verilirdi. Ukrayna ordusu xeyli sayda canlı qüvvə itirdikdən və şəhərləri darmadağın edildikdən sonra NATO Ukraynaya geniş hərbi dəstək göstərməyə başladı”. - deyən E.Həsənli vurğulayıb ki, NATO-nun daxilində gərgin vəziyyət hökm sürür: “ABŞ ilə Avropa ölkələri, hətta Avropa ölkələri arasında belə müəyyən məsələlərdə ciddi fikir ayrılıqları var. Ukraynada müharibə başladıqdan sonra bu vəziyyət daha kəskinləşib. Düzdür, Ukraynadakı müharibə nəticəsində Finlandiya və İsveç NATO-nun üzvü oldular, Baltik dənizi NATO-nun daxili dənizinə çevrildi. Bu, NATO-nun mövcudluğunu daha da gücləndirdi. Ancaq NATO ölkələri bəzi məsələlərdə ortaq məxrəcə gələ bilmirlər. Ukraynadakı proseslər bunu sübut edir. Hərbi doktrinanın dəyişdirilməsi ilə bağlı müzakirələrə gəlincə, NATO ölkələrinin bu məsələdə ümumi mövqedən çıxış edib-etməyəcəyi qeyri-müəyyən olaraq qalır”.

***Yunis ABDULLAYEV***

# “Rəqəmsal qızıl”ın dəyəri 100 min dolları ötüb

## “Bitcoin” yığımı investorlar üçün cəlbedici alətə çevrilməkdədir

Dünyada ən bahalı kriptovalyuta (rəqəmsal pul) olan “Bitcoin”in dəyəri yenidən artaraq rekordu təzələyib. Ötən həftənin sonlarında virtual pul bazarında “Bitcoin”in qiyməti 100 min dollara çatıb. Son 3 gündə qlobal bazarlarda kriptocüzdan sahiblərinin aktivləri bu valyuta ilə kəskin dolub. “Bitcoin”in bahalaşması onun bazar dəyərini və əməliyyatlar üzrə dövriyyəsini də yüksəldib. Hazırda dövriyyədə olan bu virtual pulların ümumi dəyəri 2 trilyon dollara yaxındır. Yeri gəlmişkən, “Bitcoin”in dəyəri dolların dəyərindəki dəyişiklikdən də asılı olur. Əgər dolların qlobal dəyəri azalarsa, “Bitcoin” bir qədər də bahalaşır. ABŞ-ın Federal Ehtiyatlar Sisteminin (FED) ötən ilin sonlarından etibarən yürütdüyü monetar siyasət bu kripovalyutanın dəyərinə davamlı olaraq təsir edir.

**Trampın tarif rejimini yumşaltması virtual pula yeni dəyər qazandırıb**

Ekspertlər “Bitcoin”in qiymət artımının siyasi amillərlə bağlılığını istisna etmir. ABŞ Prezidenti Donald Trampın kriptovalyuta tərəfdarı kimi tanınması və yeni hüquqi-iqtisadi mühit yaratması virtual pul alətlərinin indeks göstəricilərini yaxşılaşdırıb. Xüsusilə də Qiymətli Kağızlar və Birjalar Komissiyasına (SEC) təyin edilən yeni rəhbər rəqəmsal aktivlər üzrə peşəkar kadrlardandır. Yeri gəlmişkən, rəqəmsal valyutanın martın ilk ongünlüyündə bahalaşmasına təsir göstərən amillərdən biri Donald Trampın bir ay əvvəl elan etdiyi kəskin tarif siyasətindən imtina edərək ticari rejimi yumşaldacağına dair bəyanatı da mühüm təsir göstərməkdədir.



Xüsusilə də, Trampın Böyük Britaniya ilə iri ticarət müqaviləsi bağlanacağına dair açıqlamasından sonra yeni bazar sıçrayışları baş verib. İnvestorlar prezidentin bu bəyanatını beynəlxalq gərginliyin azalacağına siqnal kimi qəbul ediblər və kriptobazarda son bir ayda müşahidə edilən psixoloji təlaş aradan qalxıb. Eləcə də ABŞ və Çin arasında yaxın günlərdə gözlənilən danışıqlar da müsbət siqnallar verməkdədir. Bir sözlə, kriptovalyuta bazarında volotillik investorların davranışına ciddi təsir edir və kriptoyığımlarda həssaslığı artırır.

Rəqəmsal pula marağın artması və yığım aktivi kimi saxlanması üçün etibarlı alətə çevrilməsi birja cüzdanlarında da dayanıqlılığı möhkəmləndirir. Artıq iri səhmdarlar arasında “Best Wallet” kriptocüzdanına xüsusi maraq yaranıb. Eləcə də “Ethereum”, “XRP”, “Dogecoin” və “$TRUMP” kimi altkoinlərə də tələbat artmaqdadır.

Göründüyü kimi “Bitcoin” üçün əlverişli bir mühit yaranıb, “rəqəmsal qızıl” kimi statusu möhkəmlənir və onun maliyyə dünyasında əhəmiyyətli bir aktivə çevrilməsi qarşısıalınmaz prosesdir.

**Azərbaycanda kriptovalyutalar riskli hesab edilir**

Azərbaycanda blokçeyn texnologiyalarından istifadəyə müsbət yanaşılsa da, kriptovalyuta sektoru yüksək riskli investisiya aktivi hesab edilir. Bu sahədə hüquqi infrastrukturun olmaması belə sərt xarici şoklar yarada, daxili valyuta bazarında sabitlik pozula bilər. Eyni zamanda, hazırda ölkəmizdə kriptovalyutaların onlayn alışı və satışı halları mövcud olmasına baxmayaraq, bu risk alətlərinin tənzimlənməsi üçün qəti addımların atılması da aktualdır. Mərkəzi Bank bu sahədə tənzimlənmənin aparılması üçün müxtəlif ssenarilər işləyir və öz strategiyası çərçivəsində bu istiqamətdə tədbirlər görmək niyyətindədir.

Azərbaycan bu virtual valyutanı emissiya etməyib və hesablaşmalarda, bazar əməliyyatlarında kriptovalyutadan istifadə olunmur. Ölkəmiz xarici valyuta seqmentlərinə, ələlxüsus da kriptobazarlara inteqrasiya olunmayıb, yerli səhmdarların və investorların, qiymətli kağızlar bazarının emitentlərinin virtual alətlərlə əməliyyatları həyata keçirilmir.

***ELBRUS***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN






# Bəşəriyyətin mühüm varlıqları!

## Ümumdünya Analar Günüdür

Bu gün dünya ölkələrinin əksəriyyəti müqəddəs bir günü - Analar Bayramını qeyd edir. Ülvilik, zəriflik, gözəllik və güclülük rəmzi olan ana məfhumu bütün bəşər övladı üçün əzizdir. Dünyaya göz açan hər bir canlı kimi insan da ana bətnində inkişaf edib böyüdüyü, ana fiziologiyası ilə sıx bağlı olduğu üçün onlara qarşı olan məhəbbət hər insan üçün əvəzedilməzdir. Bu sevgi, bu məhəbbət digər heç bir hisslə müqayisəyə gəlməz. Analıq və anaya olan hissi isə hər kəs eyni cür ifadə etmir.

### Bayramın təşəbbüskarı Amerikadır

Anaların şərəfinə keçirilən beynəlxalq bayram bir çox ölkədə müxtəlif günlərə təsadüf edilir. Ümumiyyətlə, dünyada “Analar günü” mayın ikinci həftəsi qeyd olunur.

İngiltərədə XVII əsrdən XIX əsrədək “Anaların bazar günü” adlı bayram qeyd olunub. Anaların təbrik edilməsinə həsr edilmiş bu bayram “Böyük pəhriz” adlanan dini bayramın dördüncü bazar günündə keçirilirmiş. ABŞ-da “Analar günü” ilk dəfə 1872-ci ildə məşhur Amerika pasifisti Culiya Uord Houv tərəfindən dəstəklənib.

Analar günü həm də qadın və anaların üzləşdiyi qlobal və milli məsələlərə bir daha dünya ictimaiyyətinin diqqətini cəlb etmək, onları narahat edən problemlərin həlli yollarını araşdırmaq məqsədi daşıyır.

Culiya Uord Houvun qənaətinə görə, həmin gün anaların Yer kürəsində sülh naminə mübarizədə birliyi günüdür. Lakin onun bu konsepsiyası nə ABŞ-da, nə də digər ölkələrdə öz təsdiqini tapmayıb. 1907-ci ildə ABŞ-ın Filadelfiya ştatından olan Anna Carvis anaların təbrik olunması təşəbbüsü ilə çıxış edib. O, ilin bir gününün analara həsr olunması, yəni bu münasibətlə “Analar günü”nün qeyd olunması təklifi ilə dövlət idarələrinə, qanunvericilik orqanlarına və görkəmli şəxslərə məktub yazıb. 1910-cu ildə ilk olaraq Virciniya ştatı “Analar günü”nü rəsmi bayram kimi tanıyıb. 1914-cü ildə ABŞ prezidenti Vudro Vilson may ayının ikinci bazar gününü bütün amerikalı anaların şərəfinə milli bayram elan edib.

ABŞ-ın ardınca 23 ölkə may ayının ikinci bazar gününü bayram elan edib. Daha 30 ölkə isə bu bayramı başqa günlərdə qeyd edir.

### Analar üçün ən ideal ölkə...

“Save the Children” (“Uşaqların Xilası”) təşkilatı 178 ölkə üzrə araşdırma apararaq, dünyanın analar və uşaqlar üçün ən yaxşı ölkəsini seçib. Araşdırmanın nəticəsinə görə, Finlandiya dünyanın analar və uşaqlar üçün ən yaxşı ölkəsi olub.

Araşdırma zamanı ana sağlamlığı, uşaqlar arasında ölüm riski, təhsil səviyyəsi, ölkənin gəlir səviyyəsi və qadının siyasi statusu olmaqla 5 kateqoriya əsas götürülüb.

Növbəti yerləri isə Norveç, İsveçrə, İslandiya, Hollandiya və Danimarka tutub.

### Ana olandan sonra intellektual səviyyə artır?

ABŞ-ın Stenford Universitetinin alimlərinin fikrincə, qadın ana olanda onun intellektual səviyyəsi (İQ) artır. Araşdırmanın rəhbəri Kreyq Kinslinin dediyinə görə, bunun səbəbi təkamüldür: “Qadın ana olandan sonra həll etməsi vacib bir sıra məsələlərlə qarşılaşır. Hamiləlik zamanı qadın bir qədər dağınıq fikirli, unutqan olur. Lakin bu, hamiləlik dövründə beyindəki dəyişikliklərlə bağlıdır. Hamilə qadın ana olandan sonra isə beyin daha effektiv, daha sürətlə işləməyə başlayır”.

### Ana olmaq qadınların ömrünü uzadır

Aparılan araşdırmalar nəticəsində məlum olub ki, ana olandan sonra qadınların ömrü uzanır. Araşdırma heç də 1-2 uşaqlı anaları əhatə etmir, söhbət dünyaya 6 və ya daha çox uşaq gətirmiş qadınlardan gedir. Yəni 6 uşaq sahibi bir ananın ömrü digər anaların ömründən daha çoxdur.

Avstraliyada aparılan araşdırmaya görə, 6 və ya da daha çox sayda uşağı olan qadınların təxminən yarısı daha az ölüm riski daşıyır. Araşdırmanın rəhbəri olan Yeni Cənubi Uels Universiteti professoru Leon Simons bildirib ki, qadınları 6-dan çox uşaq sahibi olun deyə təşviq etməsək də, görünən budur ki, çoxuşaqlı analar ən azı bir uşağı olan həmcinslərindən daha çox yaşayır.

Hər bir uğurumuzun arxasında analarımızın təmiz və pak duaları dayanır. Bizi çətinliklərlə dünyaya gətirən bu möhtəşəm varlıqlara hörmət və sevgimizi göstərməkdən çəkinməməliyik. Bütün anaları ‘’Analar Günü’’ münasibətilə təbrik edirik!

*Yeganə BAYRAMOVA*

# 30 ölkədən 150-dən çox nümayəndə...

## Bakıda mühüm forum keçirildi

Mayın 13-də paytaxtımızda ilk dəfə Avropa və MDB ölkələrinin “Poçt Liderləri forumu” öz işinə başlayıb. Ümumdünya Poçt İttifaqı (ÜPİ), Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, həmçinin Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON) tərkibində fəaliyyət göstərən “Azərpoçt” MMC ilə birgə təşkil edilən forum bu gün yekunlaşacaq.

Forumda regional müzakirələr və müqayisələr, bilik mübadiləsi və innovasiyalar üçün strateji platformanın yaradılması fikri irəli sürülüb. Həmçinin tədbirdə qlobal tendensiyalar və rəqəmsal pozuntulara cavab olaraq poçt sektorunun transformasiyasına dair fikir mübadiləsi aparılıb.




Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

### Yeni poçt markası buraxıldı

Poçt sektorunun inkişafında növbəti mərhələyə keçidi təmin etdiyinə, eləcə də regional əhəmiyyətinə görə tədbirə marka həsr olunması təşkilatçılar tərəfindən qərara alınıb. Bu xatirə poçt markasında əks olunan bütün təsvirlər Bakı şəhərini xarakterizə edən elementlərin fonunda təqdim olunub. Bununla da markada Bakının poçt tarixində keçid rolu oynayan tədbirə ev sahibliyi etdiyi göstərilir.

Rəqəmsal nişanlar, axan oxlar və etiketli yollar e-ticarət və rəqəmsal həllər arasındakı əlaqəni, infrastrukturu və sürəti vurğulayır. “Baku eye” çarxının fonda olması isə bu futuristik mövzunun daima dönən bir prosesdə olmasını izah edir.

Marka Azərbaycanın milli poçt mövqeyini qlobal müasirliklə birləşdirərək rəqəmsal ticarət və “ağıllı”logistika üçün regional mərkəz olmaq arzusunu əks etdirir. Markalar 4000 tirajla, Belçikanın “Bpost StampsProduction” şirkəti tərəfindən çap edilib.

### Rəqəmsal dövrə beynəlxalq əməkdaşlıqla keçid edilə bilər

Forumda çıxış edən Ümumdünya Poçt İttifaqının (ÜPİ) İnkişaf və Əməkdaşlıq üzrə direktoru Mutua Muthusi bildirib ki, inkişaf etməkdə olan ölkələrin poçt təşkilatlarının rəqəmsal dövrə keçid etməsi üçün beynəlxalq əməkdaşlıq əsas rola malikdir: “Əsas məqsədimiz zəif işləyən poçt şəbəkələrinin optimal fəaliyyət səviyyəsinə çatmasını təmin etməkdir ki, nəticədə güclü beynəlxalq poçt şəbəkəsi yaradılsın”.

### Dünyada məktub dövriyyəsi yoxa çıxıb

ÜPİ-nin Beynəlxalq Bürosunun baş direktor müavini Marjan Osvaldın sözlərinə görə, poçt təşkilatlarının davamlılığının təmin olunması üçün hökumətlərin dəstəyi olduqca vacibdir. O, bildirib ki, dünyada məktub dövriyyəsi demək olar ki, yoxa çıxıb: “Poçt xidmətlərinin davamlılığını təmin etmək üçün hökumətlərin fəal dəstəyi lazımdır. Gələcək üçün sehrli alət və ya xidmət yoxdur. Ən böyük fürsət elektron ticarətdir. Amma bu, təkcə çatdırılma xidməti kimi deyil, həm də ixrac fəaliyyəti kimi dəyərləndirilməlidir. Bu isə ölkənin ÜDM-inə əlavə dəyər qatır”

### Azərbaycan öz namizədliyini irəli sürüb

“Azərpoçt” MMC-nin İdarə heyətinin sədri İsi Mustafayevin sözlərinə görə, Azərbaycanın poçt rabitəsinin inkişafı beynəlxalq platformalarda geniş təbliğ olunur.: “Bu artq Beynəlxalq Poçt İttifaqı tərəfindən bu il Azərbaycanda keçirilən ikinci beynəlxalq tətbiqdir. İlk beynəlxalq tədbiri yanvar ayında keçirmişdik. Bu günkü forumda 150-ə yaxın müxtəlif ölkələrin nümayəndələri iştirak edir. Onlar arasında poçt sektorunun tənzimləyiciləri, nazirlik səviyyəsində nümayəndələr, milli poçt operatorlarının rəhbərləri var. Forumun ən böyük əhəmiyyəti Azərbaycanın tanıdılmasıdır. Onun beynəlxalq arenada nüfuzunun artırılması məqsədi daşıyır.

Bir məqama da da xüsusi diqqət cəlb etmək istəyirəm. Dubayda keçiriləcək növbəti Beynəlxalq Poçt İttifaqı seçkilərində Azərbaycan dövlət olaraq öz namizədliyini irəli sürüb. Məhz bu platformada bizim üçün imkanlar yaranır ki, Azərbaycanı dünya ölkələri arasında daha da tanıdaq, Azərbaycanda poçt rabitəsinin inkişafı barədə ətraflı məlumat verək”.




### Müştəri kanallarının rəqəmsallaşdırılması

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov bildirib ki, “Azərpoçt”un əsas biznesinin genişləndirilməsi - kuryer, ekspress və bağlama xidmətlərinin inkişafı, eləcə də yeni maliyyə və logistika xidmətlərinin tətbiqi növbəti mərhələdə nəzərdə tutulur. O, qeyd edib ki, digər əsas istiqamət isə innovasiyadır: “Bu, innovativ həllərin tətbiqi, müştəri kanallarının rəqəmsallaşdırılması, yeni məhsul və gəlir mənbələrinin inkişafını əhatə edir”.

Nazir müavini bildirib ki, Azərbaycan poçt sahəsində beynəlxalq əməkdaşlığa xüsusi önəm verir və bu istiqamətdə ikitərəfli və çoxtərəfli təşəbbüslərdə fəal iştirak edir: “Azərbaycan cari ilin 7-19 sentyabr tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçiriləcək 28-ci Ümumdünya Poçt İttifaqı Konqresində təşkilatın İdarəetmə Şurası və Poçt Əməliyyatları Şurasına namizədliyini irəli sürüb”.

*Yeganə BAYRAMOVA*

# Azercell-in təcrübəsi Filip Kotlerin “Müasir Marketinqin Əsasları” kitabında yer alacaq

Dünyaca məşhur tədris vəsaitinin Azərbaycan nəşri ölkənin rəqəmsal transformasiyasında Azercell-in aparıcı rolunu gündəmə gətirəcək

Ölkənin lider mobil operatoru “Azercell Telekom” MMC beynəlxalq miqyasda tanınan Filip Kotlerin “Müasir Marketinqin Əsasları” (Essentials of Modern Marketing - EOMM) adlı kitabının Azərbaycan nəşrində təqdim olunacaq.

Azercell-in rəqəmsal transformasiya sahəsindəki uğurlu təcrübəsini əks etdirən bu nəşrdə şirkətin rəqəmsallaşma strategiyasına geniş yer ayrılıb. Kitabda Robotik Proseslərin Avtomatlaşdırılması (RPA) texnologiyasının tətbiqi, daxili əməliyyatların optimallaşdırılması və yerli bazarda reallaşdırılmış yeniliklər ətraflı şəkildə əks olunur. Bu təşəbbüslər Azercell-in innovasiyalara sadiqliyini nümayiş etdirməklə yanaşı, milyonlarla istifadəçinin rəqəmsal təcrübəsinin inkişafına verdiyi töhfəni önə çıxarır.

“Azercell Telekom” MMC-nin prezidenti Zərinə Zeynalova bildirib: “Bu qlobal platforma Azərbaycanın rəqəmsal ekosistemində müşahidə olunan sürətli inkişafı beynəlxalq auditoriyaya təqdim etmək üçün unikal bir imkandır. Biz də öz növbəmizdə ekosistemin aparıcı qüvvələrindən biri olaraq texnoloji dəyişikliklərin yaratdığı imkanlar və çağırışlar barədə dərin anlayışa və strateji baxışa malikik. Azercell-in bu sahədəki təcrübəsi şirkətdaxili proseslərin və prosedurların rəqəmsallaşdırılması ilə başladı və artıq abunəçilərimizə təqdim olunan innovativ xidmətləri əhatə edir. Qeyd etmək istərdim ki, şirkətimiz Azərbaycanda fintex həllini tətbiq edən ilk mobil operator olub. Bu təşəbbüs çərçivəsində həyata keçirilən startap layihəmiz bu gün Azercell-in törəmə şirkəti kimi fəaliyyətini davam etdirir.”

Hazırda sosial-iqtisadi transformasiyanın fəal mərhələsini yaşayan ölkəmiz “Azərbaycan 2030: Sosial-Iqtisadi İnkişafın Milli Prioritetləri” çərçivəsində innovasiyaların təşviqinə, rəqabətqabiliyyətli insan kapitalının formalaşdırılmasına və müasir texnologiyalarla gücləndirilmiş inklüziv cəmiyyətin qurulmasına xüsusi önəm verir. Azercell öz strateji fəaliyyətini bu milli məqsədlərlə uyğunlaşdıraraq rəqəmsal iqtisadiyyatın inkişafına töhfə verir və ölkənin gələcəyə dair baxışının reallaşdırılmasında fəal iştirak edir.




“Müasir Marketinqin Əsasları” Kotler Impact tərəfindən idarə olunan və 100-dən çox ölkəni əhatə edən qlobal təşəbbüsdür. Nəşrlərdə Meta, Danone, Google, Amazon, Lamborghini, Knauf, P&G, Wendy’s və Dunkin’ kimi nüfuzlu beynəlxalq şirkətlərin təcrübələrinə yer verilir. Kitabın Azərbaycan nəşri yerli uğur hekayələrinin qlobal biznes və akademik müstəvidə tanıdılması baxımından əlamətdar bir hadisə hesab olunur. Kotler Impact-in MDB regionu və Azərbaycandakı eksklüziv nümayəndəsi olan AWE Consulting bu təşəbbüsün ölkəmizdə reallaşmasında əsas rol oynayır. Kitab qlobal elektron kitabxanalarda və təhsil platformalarında təqdim ediləcək.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4953
Sifariş: 1001
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova